

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Fransa portalı Şuşa ilə bağlı reportaj yayımlayıb




2

SƏS
№ 137 (6820)
4 avqust 2023-cü il.
Qiyməti 60 qəpik

# İnformasiya müharibəsində də Azərbaycana QƏLƏBƏ QAZANDIRAN LİDER



9

# Seçim Ermənistanındır: Sülh, yoxsa "Dəmir yumruq"?



14

### Medianın İnkişafı Agentliyi Şuşa Qlobal Media Forumunun iştirakçılarına qarşı aparılan təhdid kampaniyası ilə bağlı bəyanat yayıb




4

### Andrey Çernışov: Azərbaycanı çox sevirəm! Günəşli, açıq və istedadlı ölkədir



15

### Fransa uduzur və təklənir



5



### Teleterror əməliyyatı

13

### Forma hoqqabazlığı start götürdü



12

# “Azərbaycan sülh prosesini davam etdirmək əzmindədir”



## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

Dövlətimizin başçısı bu yaxınlarda ABŞ Dövlət katibi Antoni Blinkenlə keçirdiyi telefon söhbəti zamanı qaldırılmış məsələlər ətrafında fikir mübadiləsini davam etdirdi. Prezident İlham Əliyev Azərbaycan tərəfinin sülh prosesini davam etdirmək əzmini bir daha təsdiqlədi və tezliklə danışıqlar çərçivəsində müzakirə olunan əsas istiqamətlər üzrə nəticələrin əldə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.

# Fransa portalı Şuşa ilə bağlı reportaj yayımlayıb

Fransanın ”Musulmans en France” portalı Azərbaycanın Qarabağ bölgəsi, o cümlədən Şuşa ilə bağlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rus İcması sədrinin birinci müavini, siyasi icmalçı, CBC telekanalının müxbiri Anastasiya Lavrina tərəfindən dünyaşöhrətli fotojurnalist Rza Deqati ilə birlikdə hazırlanan reportajda birinci müharibədən sonra Azərbaycanın Qarabağ bölgəsində, o cümlədən Şuşada ermənilər tərəfindən törədilmiş kütləvi dağıntılar və talanlar barədə danışılır, şahid ifadələrinə geniş yer verilir.

Reportajda 2020-ci ildə 44 günlük müharibədə azad edilən Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı olduğu bildirilir. Qeyd olunur ki, Şuşanın azad edilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun keçirdiyi uğurlu döyüşlərin nəticəsidir. Şuşa şəhərinin azad olunması ilə Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Süjetdə, həmçinin Şuşanın tarixi haqqında məlumat verilir.

Anastasiya Lavrina və Rza Deqati Birinci Qarabağ müharibəsinin iştirakçısı, Azərbaycanın Milli Qəhrəmanı, 1992-ci ildə Şuşa özünümüdafiə batalyonunun yaradıcısı Ramiz



MUSULMANS en FRANCE
Le journal des musulmanes et musulmans en France

DÉBATS DE SOCIÉTÉ | INTERNATIONAL | ISLAM | FRANCE | L'ISLAM EN OCCIDENT | INTER-RELIGIEUX | RUBRIQUES | العربية | ENGLISH

PORTRAITS DU KARABAKH : RAMIZ GAMBAROV

3 août 2023

Tandis que les medias français, en faisant une large place aux discours des activistes arméniens, présentent ceux-ci comme les victimes d'une agression, et occultent la réalité des atrocités commises par les commandos séparatistes arméniens en Azerbaïdjan, il est bien difficile, pour un journaliste, de présenter un autre discours, celui d'une occupation miliotaire impitoyable et contraires aux lois internationales.

Depuis la fin de la guerre de 44 jours qui a permis à l'Azerbaïdjan de reconquérir la quasi totalité de son territoire, les langues se délient, malgré la pression exercée par une partie de la diaspora arménienne en France.

Anastasia Lavrina, journaliste à la chaîne azerbaïdjanaise CBC TV, livre, en compagnie du célèbre photographe Reza une série de témoignages sur ce que fut la première guerre du Karabakh et une occupation au cours de laquelle la région fut totalement saccagée et détruite.

Qəmbərovun ailəsində olub. Milli Qəhrəmanın qardaşı Hafiz Qəmbərov və digər yaxınları onunla bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, R.Qəmbərov Şuşanı bütün qəlbi ilə sevirdi və doğma şəhəri uğrunda son nəfəsinə qədər döyüşdü. Hafiz Qəmbərov Şuşada olan evlərinin dağıntıları qarşısında göz yaşlarını saxlaya bilmir, başlarına gələnləri nəql edir. Bildirir ki, 1992-ci ildə şəhər işğal olunanda bütün əhali mal-mülkünü qoyaraq şəhəri tərk edib.

Reportajda Rza Deqati də şəxsən tanıdığı Ramiz Qəmbərovla son görüşü barədə xatirələrindən danışır. Qeyd edir ki, 1992-ci ilin aprelində Şuşa mühasirəyə alınanda o, Ramiz Qəmbərovla çay süfrəsində bir şəkil çəkib və onu ”Şuşada sonuncu çay” adlandırıb. Sonradan bu şəkil nəinki Azərbaycanda, bütün dünyada ən məşhur fotolardan birinə çevrilib.

Rza Deqati Ramiz Qəmbərovun qəhrəmanlığından da danışıb. Bildirib ki, o, Şuşadan çıxmayacağını, şəhəri müdafiə edəcəyini və son damla qanına qədər döyüşəcəyini deyib, həyatda olduğu müddətdə buradan heç bir düşmənin keçə bilməyəcəyini qeyd edib. R.Deqati Ramiz Qəmbərovun çox zarafatcıl biri olduğunu, yoldaşları ilə daim deyib-güldüyünü bildirib.

Süjetdə, həmçinin diqqətə çatdırılıb ki, işğal illərində Şuşadakı məscidlər, tarixi və mədəniyyət abidələri dağıdılıb, tanınmış şəxsiyyətlərin, o cümlədən Natəvanın, Üzeyir Hacıbəyli və Bülbülün büstləri vandalizmə məruz qalıb və satılıb. Yalnız Şuşa azad edildikdən sonra həmin heykəllər əvvəlki yerinə qaytarılıb.

Sonda vurğulanıb ki, Şuşa uğrunda canlarını qurban verən şəhidlərin ruhu bu gün şaddır. Çünki onların uğrunda canlarından keçdiyi Şuşa bu gün azaddır.



# ”Azərbaycanla İtaliya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir”

## Prezident İlham Əliyev İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədrini qəbul edib

**Prezident İlham Əliyev avqustun 3-də İtaliyanın ”Leonardo” şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul edib. Stefano Pontekorvo İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni və müdafiə naziri Quido Krosettonun salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Nazirlər Şurasının Sədrinə və müdafiə nazirinə çatdırmağı xahiş etdi. Görüşdə Azərbaycanla İtaliya arasında səmərəli tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, hərbi və mülki sahələrdə dünyanın ən qabaqcıl şirkətlərindən biri olan ”Leonardo” şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, İtaliyanın müdafiə məhsulları istehsal edən ən böyük şirkəti olan ”Leonardo”nun mülki sektorda da maraqlı texnologiyaları, o cümlədən ”Smart city” texnologiyası, süni peyk istehsalı və aerokosmik xidmətlər, böyük şəhərlərin nəqliyyat sistemlərinin idarəedilməsi də var. Şirkətin rəhbər şəxsləri bu sahələrdə də ölkəmizə faydalı ola biləcək əməkdaşlıqla bağlı təşəbbüslərini ifadə etdilər.

# Ədaləti güc hesabına bərpa edən Azərbaycan!

## Prezident İlham Əliyev: "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi"

Azərbaycanın bayrağını yüksəkliklərdən-yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Lideri, Sərkərdəsi və Prezidenti var. Bu güc, bu Sərkərdəlik Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni səhifə, salnamə oldu. Ölkəmizdə xalq-iqtidar həmrəyliyi mövcudluğu, güclü ordumuz, milli-mənəvi dəyərlərə söykənən cəmiyyətin formalaşması da qələbəmizi şərtləndirən amillər sırasındadır. İşğal altında olan şəhər, kənd və qəsəbələrimizin Azərbaycan ordusu tərəfindən azad olunması, eləcə də Şuşanın azad edilməsi və noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi artıq düşmənin çıxılmaz vəziyyətdə olduğunu ona anlatdı və məğlubiyyəti ilə üz-üzə qaldı. Belə olduğu halda, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Bunu Paşinyan dəmir yumruğun hesabına imzaladı.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunun, 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonunun, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunun qaytarılması bəyanatda əksini tapıb. Bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması, ərazinin böyüklüyü və humanizm göstərilmişdir.



### "BİZ ERMƏNİSTANIN TORPAĞINDA SAVAŞMADIQ VƏ BİZ ZƏFƏR ÇALDIQ"

"Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı. Biz bir çox amillərə baxmadan müharibədə qalib gəldik: siyasi amillərə, bizim hərbçilərimiz üçün bir neçə müdafiə səddinin qırılmasını çətinləşdirən işğal edilmiş ərazilərdə uzunmüddətli infrastruktur layihələrinin olması amillərinə baxmadan". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Şuşada "Euronews" televiziyasına müsahibə verərkən bildirib: "Bəzi yerlərdə onların minalarla dolu beş, digər yerlərdə isə yeddi müdafiə səddi var idi. Yəqin ki, Füzulidən gələndə yolun yuxarıya doğru getdiyini görmüsünüz. Bizim hərbçilərimiz məhz bu yolla buraya gəliblər. Sizin gəldiyiniz, sonradan "Zəfər yolu" adlandırdığım bu yol mövcud deyildi. Bu, bizim hərbçilərimizin Şuşaya doğru necə irəliləməsini göstərən yol idi. Onlar bu qayalı dağlara dırmaşırdılar. Beləliklə, bu amillərə, böyük erməni diasporuna malik bir çox ölkələrin güclü siyasi dəstəyinə baxmayaraq, biz düzgün olanı etdik. Biz ədaləti və ərazi bütövlüyümüzü bərpa etdik. Biz öz torpağımızda vuruşduq. Biz Ermənistanın torpağında savaşmadıq və biz Zəfər çaldıq".



Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu erməniyə, eləcə də bütün dünyaya göstərə bildi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Prezident İlham Əliyev qətiyyətini, siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Dövlət başçısının mövqeyi ardıcıl olaraq dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində də özünü biruzə verdi və ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən ermənilər təcavüzkar siyasətlərini davam etdirərək, dinc əhalini hədəfə aldılar və yaşayış məntəqələrini ballistik raketlərdən atəşə tutdular. Bu müharibədə Azərbaycan mülki insanlarla müharibə aparmadı və Ermənistandan fərqli olaraq etnik təmizləmə həyata keçirmək niyyətində deyildi. Amma Ermənistan tərəfindən mülkü əhaliyə dəfələrlə atəş açıldı. Bərdə, Gəncə, Tərtər kimi şəhərlərimiz ziyan çəkdi. Mənfur düşmən tərəfindən mülki şəxslər qətlə yetirildi. 400-dən çox mülki şəxs yaralandı. Azərbaycan ordusu, əsgəri isə intiqamını hər zaman döyüş meydanında aldı. Azərbaycan Silahlı Qüvvələrinin hədəfində isə yalnız işğalçı ölkənin hərbi birləşmələri idi. Cəbrayıl, Füzuli, Zəngilan və digər şəhər, qəsəbə və kəndlərin alınması Azərbaycan xalqına qələbə sevincini yaşadırdı. Rəşadətli ordumuzun Şuşaya Azərbaycan bayrağını sancması Ermənistanın siyasi-hərbi rəhbərliyinə ağır bir zərbə oldu.

### "BİZ SÜLH ÜÇÜN HAZIR İDİK"

Bütün dövlətlər, beynəlxalq təşkilatlarla qarşılıqlı anlaşma və əməkdaşlıq çərçivəsində qurduğu münasibətlər dövlətimizin qlobal arenada mövqeyini getdikcə gücləndirir. Azərbaycan müharibədən qalib çıxan ölkə kimi sülhpərvər mövqeyi ilə dünyaya öz prinsipini göstərmiş olur. Beynəlxalq qurumların Ermənistanı dəstəkləmək məqsədilə Azərbaycan əleyhinə bəyanatlar verməsinin və qətnamələr qəbul etdiyinin şahidi olmuşuq. Postmüharibə dönəmində Azərbaycan sülhün təmin olunması üçün real addımlar atmaqdadır. Moskva, Soçi, Brüssel və Praqa kimi görüşləri zamanı Azərbaycan öz qətiyyətli mövqeyini nümayiş etdirmişdir. Bunun əksinə olaraq, Ermənistan dəfələrlə bu görüşlərdən sonra təxribatlara əl atmış, sülhə kölgə salmış, proseslərin həllini uzatmışdır. Cənab Prezidentə ünvanlanan "2020-ci ildəki sülh razılaşmasından sonra gərginlik hələ də tam aradan qalxmayıb. Daimi düşmənçiliyi Siz nə ilə əlaqələndirirsiniz?" sualına belə cavab verib: "Düşünürdüm ki, İkinci Qarabağ müharibəsindən sonra vəziyyət fərqli olacaq. Biz sülh üçün hazır idik və əslində bir az gözlədik ki, beynəlxalq iştirakçılar bizə müəyyən yeni təkliflər versinlər. Anladıq ki, bu, bir növ boşluqdur. Heç kəs nə etməyi bilmirdi. 2020-ci il noyabrın 10-da Bəyanatı imzaladığımız zaman vəziyyət, əslində, dayanıqlı sülhü təmin etmirdi.

O, sülh razılaşması deyildi, Bəyanat idi. Əslində, Ermənistanın kapitulyasiya aktı idi. Buna görə biz Ermənistanla münaqişənin yekun həll variantını tapmaq məqsədilə müəyyən təşəbbüslərlə çıxış etməyə başladıq və ictimaiyyət qarşısında bunu açıqladıq. Elan etdik ki, sülh sazişi imzalanmalıdır. Sonra yenə boşluq yarandı. Sonra isə biz sülh sazişinin prinsiplərini müəyyən etdik. Onlar ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir. Bu təklifi biz masa üzərinə qoyduq. Biz 30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq yeni sülh prosesinin müəllifi olduq. Deməzdim ki, hər şey çox rəvan gedir. Biz hələ də nikbinik, çünki hazırda biz hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində çox fəal danışıqlar aparırıq".

Əlbəttə ki, sülh Azərbaycanın irəli sürdüyü 5 prinsip əsasında reallaşmalıdır. Bildiyimiz kimi, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Beş prinsipi özündə əhatə edən sülh müqaviləsi əsasında iki ölkə arasında sülh müqaviləsi imzalana bilər. Bu gün Azərbaycan dünyada sülhsevər siyasəti ilə diqqətdədir. Daxil olduğumuz regionda deyil, bütövlükdə dünyada nəzərdə tutulan layihələrdə Azərbaycanın maraqları və mövqeyi nəzərə alınır.

***Nəzakət ƏLƏDDİNQIZI***




# Soyqırımı meşədən başladı

Meşələrin məhvi təbiətə qarşı terrordur və hər bir insanın onu qoruması üzərimizə məsuliyyət qoyur. Ölkəmizi, dünyamızı yaşıllıqlara qərq etməliyik. Əbəs deyil ki, müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin, planetimizin qorunması diqqətdədir. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək planetimizə görə məsuliyyət daşıyırlar. Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanmasına hər kəs, bütün dünya ictimaiyyəti töhfələrini verməlidir. Əlbəttə ki, bioenergetik varlıq olan insan təbiətlə birgə təmasdadır, yaşayır və inkişaf edir. Demək, təbiətsiz canlı varlıqlar, insan məhv olar. Təbiətə gözəllik, yaraşıq verən, onu zənginləəşdirən isə meşələridir. Bu da bizim sağlamlığımız üçün çox vacib şərtlərdən biridir. Biz yaşıllığı nə qədər çox artırsaq hava o qədər təmiz olar, meşələrin qırılması isə təbiətin məhvi deməkdir. Meşələrin qırılması oksigenin azalmasına, ekologiyanın pozulmasına gətirib çıxarır ki, bu da təbiətin məhvi deməkdir.

Təbii ki, təbiətə qayğı hər kəsdə olmalıdır. Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanıb. Respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14%-ni təşkil edir. Meşə ilə örtülü sahələr isə 1021min hektardır ki, bu da respublika ərazisinin 11,8 %-ni əhatə edir. Demək, Azərbaycanın meşə fondu kifayət qədər ərazini əhatə edir. Ekoloji mühitin əsas tərkib hissələrindən hesab olunan meşələr qlobal ekoloji problemlərdən hesab olunan iqlim dəyişmələrinin, səhralaşma proseslərinin genişlənməsinin, bioloji müxtəlifliyinin azalmasının, atmosferdə qaz balansının pozulmasının qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycanın sosial-iqtisadi, mədəni, müdafiə sahəsindəki inkişafında da əhəmiyyətli rola malikdir.

## 60 MİN HEKTARDAN ÇOX MEŞƏ FONDU ERMƏNİLƏR TƏRƏFİNDƏN DAĞIDILIB, TALAN EDİLİB

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyanlar vurulub. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar". 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı findığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir". Dövlət başçısı azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqların da olduğunu bildirib: "Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb".

Şuşa şəhəri yaxınlığında yerləşən meşə və dövlət qoruğu olan Topxana meşəsinin 1988-ci ildə dağıdılması Qarabağın siyasi gələcəyi ilə bağlı gərginliyə səbəb oldu. Qarabağ müharibəsi ilə nəticələnən sivil və inter-etnik iğtişaşlara gətirib çıxardı. Topxananın adı 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirə etdiyi zaman topların yerləşdirildiyi yer olması ilə bağlıdır. Qarabağda Topxana meşəsinin qırılması 1988-ci ilin anti-sovet mitinqlərinin alovlanmasına səbəb oldu və beləliklə, 17 noyabr 1988-ci ildə Meydan hərəkatı başladı. Qədim tarixə malik Topxana meşəsi Şuşanın nadir sərvətlərindən biridir. Şuşa ətrafındakı torpaqların 20 faizini əhatə edən meşədə palıd, fıstıq, qarağac kimi ağaclar vardı. Topxana əsl təbiət möcüzəsi idi. Topxananın heyvanat aləmi ayı, canavar, tülkü, dovşan, cüyür və digər heyvanlardan, kəklik, turac, göyərçin kimi gözəl quşlardan ibarət idi. Topxana meşəsində subalp və alp çəmənləri, dərin dərələrində bulaqlar olub. İşğalçı ermənilər sərvətlərimizi talan edir, meşələrimizi qırıb daşıyıblar. Təxmini məlumatlara görə, Topxanadan 2000 ədəddən çox palıd və digər qiymətli ağaclar kəsilərək Ermənistana daşınıb. Şuşanın Cıdır düzündə, "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşə qoruğu zonasında, meşənin lap hündür yerində geniş düzənlik açılıb, orada müxtəlif adda qiymətli ağaclar qırılaraq tikinti işlərində istifadə edilib. 28 il 7 ay ərzində işğal altında qalmış Topxana meşəsi demək olar ki, dağıdılmış, bitki örtüyü, heyvanat aləmi məhv edilmişdir.

## 968 HEKTAR MEŞƏ QIRILARAQ MEBEL İSTEHSALI ÜÇÜN ERMƏNİSTANA GÖNDƏRİLİB

Əlbəttə ki, ermənilərin Azərbaycanın flora və faunasına vurduğu ziyan canlı təbiətə böyük bir zərbədir və bu vəhşilikdir. Bir ağacı becərmək, ərsəyə gətirmək onilliklərin hesabına mümkün olduğu halda, bir neçə saat ərzində canlı təbiətə təcavüz edən ermənilər onu məhv edirlər. 1969-cu ildə yaradılan Qubadlı Dövlət Təbiət Yasaqlığının 1988-ci ildə sahəsi 8500 hektar olduğu halda, 2020-ci ildə bu 6923 hektar olub. 1577 hektarı erməni təcavüzkarları dağıdaraq, bunu talan ediblər. Laçın Dövlət Təbiət Yasaqlığı. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı erməni təcavüzünə məruz qalıb. Kəlbəcər ərazisində adı "Qırmızı Kitab"a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələr var.

Adı "Qırmızı Kitab"a salınmış Kəlbəcər rayonunda yerləşən ayı fındığı növündən ibarət 968 hektar meşə qırılaraq mebel istehsalı üçün Ermənistana göndərilmişdi. Erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlardan biri hələ sovetlər birliyində yaşadığımız illərdə Ermənistan tərəfindən Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktıdır.

Erməni təcavüzkarları işğal illərində Azərbaycanın meşə örtüyünün sistemli şəkildə məhv edilməsindən "doymayan" ermənilər 44 günlük müharibə zamanı Qarabağın ekologiyasına bir daha zərbə vurdular. Ermənilərin fosfor bombalarından istifadə etməsi nəticəsində baş verən yanğınlar meşə massivlərinin geniş ərazisini əhatə etdi. Hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandıqdan sonra isə ermənilər möhlət hüququndan istifadə edərək Kəlbəcərdə tələm-tələsik meşələri qırmağa və evləri yandırmağa başladılar.

Bütün bunlara baxmayaraq, Azərbaycana məxsus olan və təbiətin sağlamlığına təsirini göstərən qoruq və yasaqlıqlar bu gün yenidən bərpa olunacaq.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Medianın İnkişafı Agentliyi Şuşa Qlobal Media Forumunun iştirakçılarına qarşı aparılan təhdid kampaniyası ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi Şuşada keçirilmiş "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumunun iştirakçılarına qarşı sosial şəbəkələrdə aparılan təhdid kampaniyası ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "İyulun 21-23-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilmiş, dünyanın 49 ölkəsindən 150 xarici qonağın, o cümlədən 34 ölkənin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat, media qurumu rəhbərlərinin, yüksək səviyyəli media ekspertlərinin və jurnalistlərin iştirak etdikləri "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Media Forumu gələcəyə yönəlik ciddi, peşəkar mesajları ilə beynəlxalq ic-




timai rəydə mühüm əhəmiyyət kəsb edən tarixi hadisə kimi xarakterizə olunmaqdadır".

Həmçinin bildirilir ki, Forumun keçirilməsində məqsəd az qala işıq sürəti ilə yenilənən, texnoloji innovasiyalara şahidlik edən dünyamızda insanlara ictimai əhəmiyyətli xəbərlər verən jurnalistikanın gələcək inkişaf istiqamətlərini müzakirə etmək olub. Forumda rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər və bu kontekstdə medianın rolu barədə ətraflı müzakirələr aparılıb, ənənəvi medianın bugünkü rolu, gələcəyi, yeni tendensiyalar fonunda jurnalistikada yaranan çətinliklər və aktuallaşan yeni istiqamətlər, eləcə də bu sahədə rəqəmsal alətlərin tətbiqinin yaratdığı nəticələr diqqət mərkəzində olub.

"Lakin təəssüflər olsun ki, "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumunun mahiyyətini bilərəkdən siyasiləşdirməyə çalışan Ermənistan hökuməti və ona yaxın dairələr öz məhdud merkantil maraqlarından çıxış edərək bu mötəbər tədbirdə iştirak etmiş yüksək səviyyəli ekspertlər, beynəlxalq ictimai rəydə nüfuza malik olan jurnalistlər haqqında sosial şəbəkələrdə qarayaxma və nifrət kampaniyası aparır, onların reputasiyasına kölgə salmağa cəhd edərək media etikası ilə heç bir halda uyuşmayan mövqe sərgiləyirlər. Biz Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi olaraq Azərbaycan jurnalistləri adından belə qarayaxma kampaniyasını pisləyir, bunu azad sözə və jurnalistikaya qarşı terror kimi qiymətləndirir, peşəkar prinsipləri rəhbər tutaraq keçirilmiş və yalnız müasir medianın problemlərinə, inkişaf perspektivlərinə həsr olunmuş Forumun nifrət nitqinə alət edilməsinin yolverilməz olduğunu bəyan edirik", - deyə bəyanatda qeyd olunur.

# YAP nümayəndələri ICAPP-ın Monqolustandakı tədbirlərində iştirak edəcəklər

2023-cü il 4-7 avqust tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda hakim Monqolustan Xalq Partiyasının ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Gənclər Qolunun VI və Qadınlar Qolunun VII iclasları keçiriləcək. SİA xəbər verir ki, ICAPP-ın dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri - partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli bəhs olunan tədbirlərdə iştirak edəcəklər.



Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ICAPP Daimi Komitəsinin üzvüdür və təşkilatın bir sıra tədbirlərinə ev sahibliyi edib.

BAXIŞ BUCAĞI

# Fransa uduzur və təklənir

**Müstəmləkəçiliyin sona çatmasına, dövlətlərin imperialist siyasətinin tarixin arxivinə atılmasına baxmayaraq Fransa hələ də Afrikada, uzaq Okeaniyada, Cənubi Amerikada xalqları əzməkdə, onların var-yoxuna sahiblənməkdə davam edir. Eyni anda da rəsmi Paris insan haqlarından, demokratiyadan, haqq və ədalətdən danışır. Haqsız olduğu halda haqlıların haqqına girməklə zor dilini və əlini də sakit saxlamır. Bu gün Cənubi Qafqazda 30 ildən artıq davam edən və artıq sonuclanmaq üzrə olan Ermənistan-Azərbaycan münaqişəsinə barmaq uzadır, işğalçı ermənilərə qəyyumluq edir, onlara kərtənkələ xidməti göstərir. Parisin həddsizliyinin bədəli necə ödənməli olduğunu bu gün Afrika ölkələri əyani şəkildə göstərirlər. "Qara qitə"nin xalqları bir-birinin ardınca Fransanın kolonialist, müstəmləkəçi siyasətinə qarşı çıxır, hərbi birliklərini öz ərazilərindən çıxarmaq üçün əsl müharibə aparırlar. Fransa qoşunları bir neçə ölkədən biabırcasına qovulub, Parisə qarşı dirəniş göstərən ölkələrdəki fransız şirkətləri də şələ-şüləlerini götürüb arxalarına baxmadan qaçmaqdadırlar.**



Bu gün "qara qitə" yenə qaynayır. Fransa öz vətəndaşlarını Nigerdən təxliyə etməyə başlayıblar. Ötən həftə çevriliş baş verən ölkədə vəziyyət hər an nəzarətdən çıxa biləcəyi üçün digər Avropa ölkələri də bundan nümunə götürməyə hazırdır. Mali və Burkina Faso Nigerdəki üsyandan və hakimiyyət dəyişikliyindən narazı olan qonşularına xəbərdarlıq ediblər ki, bu ölkənin işlərinə hər hansı kənar müdaxiləni onlara qarşı müharibə elanı kimi qəbul edəcəklər. Bununla belə, bütün xarici oyunçular Nigerdəki vəziyyətin öz-özünə sabitləşəcəyinə ümid edir. Məsələn, ABŞ evakuasiya etməyə tələsmir.

Fransa ilə bağlı vəziyyət bir az fərqlidir, bu ölkənin vətəndaşlarını daşıyan ilk təyyarələr çərşənbə axşamı Nigerdən Parisə tərəf istiqamət götürüb. Təxliyə barədə qərar Fransa Xarici İşlər Nazirliyində keçirilən fövqəladə antiböhran iclasından sonra qəbul edilib. O, ötən bazar günü Niger paytaxtında Fransa səfirliyinə hücum cəhdindən sonra çağırılıb. Diplomatik nümayəndəliyin binası yaxınlığında çoxminlik nümayiş keçirilib, iştirakçılar Fransa əleyhinə şüarlar səsləndirib, xarici qoşunların ölkədən çıxarılmasını tələb ediblər.



Fransa Xarici İşlər Nazirliyinin məlumatına görə, Nigerdə 600-ə yaxın fransız mülki vətəndaş var. Təxminən 1500 fransız əsgəri də oraya yerləşdirilib, lakin onların geri çəkilməsi ilə bağlı hələlik heç bir söhbət yoxdur. Paris həmçinin digər Avropa ölkələrinin vətəndaşlarına Nigeri tərk etməyi məsləhət görüb. İtaliya da öz evakuasiya uçuşunu hazırlayır. Almaniya və İspaniya da öz vətəndaşlarına Nigeri tərk etməyi tövsiyə edib. Aİ missiyası hələlik şəxsi heyətin təxliyəsi ilə bağlı qərar qəbul etməyib, lakin belə arzusu olanların özbaşına getməsinə icazə verib.

Xatırladaq ki, ötən həftənin ortalarında Nigerdə hərbi çevriliş olub. Üsyançılar prezident Mohamed Bazumu hakimiyyətdən uzaqlaşdıraraq ev dustaqlığına salıblar. Ölkənin müvəqqəti idarəsi üçün yaradılmış Vətənin Müdafiəsi üzrə Milli Şuraya prezident qvardiyasının komandiri, general Abdurahman Çiani rəhbərlik edir. Beynəlxalq ictimaiyyətin əksər üzvləri üsyançıların hərəkətlərini pisləyib və hakimiyyətin qanuni prezidentə qaytarılmasını tələb ediblər. Fransa, Almaniya və Böyük Britaniya Nigerə həm maliyyə, həm də təhlükəsizlik sahəsində yardımın dayandırıldığını elan ediblər. Nigerin də daxil olduğu Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyi (ECOWAS) hakimiyyəti ələ keçirən hərbçilərə qarşı sanksiyalar tətbiq etdiyini açıqlayıb. Bundan əlavə, ECOWAS üsyançılara müqavimət göstərmək üçün bir həftə vaxt verib, əks halda onlara qarşı güc tətbiq edəcəyini vəd edib.

Lakin Nigerdə hakimiyyəti ələ keçirən üsyançılar özlərinə qonşular arasından müdafiəçilər də tapdılar. Çərşənbə axşamı gecəsi hər biri son üç ildə iki hərbi çevriliş görmüş Mali və Burkina Faso birgə bəyanat yayaraq Nigerin işlərinə hər hansı bir güc müdaxiləsinin müharibə elanı kimi qiymətləndiriləcəyi barədə xəbərdarlıq ediblər. İki ölkə həmçinin ECOWAS-ın iqtisadi sanksiyalarını "qanunsuz və qeyri-insani" olaraq pisləyib və onlara qoşulmaqdan imtina edib. Qvineya da iki il əvvəl hərbi çevrilişin baş verdiyi qiyamçı hərbçilərə dəstək verib.

Həm ECOWAS-ın bəyanatları, həm də onların qərarına qarşı çıxanlar sözdən başqa bir şey deyil. Hər tərəf öz əhəmiyyətini nümayiş etdirməyə çalışır. Bundan əlavə, ECOWAS-ın öz kontingentini Nigerə gətirmək üçün kifayət qədər gücü yoxdur. İlk növbədə, təşkilat Nigeriyanın hərbi imkanlarına arxalana bilər, lakin çətin ki, bu ölkənin prezidenti Bola Tinubu öz qoşunlarını Nigerə göndərməyə cəsarət etsin. Bu, ona ordunun dəstəyinə baha başa gələ bilər.

Bola Tinubu yalnız bu yaxınlarda, mayın sonunda Nigeriya prezidenti olub, lakin o, qeyri-populyar islahatlara getdiyindən, xüsusən də qiymətlərin kəskin artmasına səbəb olan yanacaq subsidiyalarını ləğv etdiyi üçün artıq etibarının çox hissəsini puç edib. Onun təhlükəsizlik qüvvələri ilə də əlaqəsi olmayıb. İyunun ortalarında prezident bütün hüquq-mühafizə orqanlarının rəhbərlərini işdən çıxarmalı oldu. İndi Tinub mümkün qədər diqqətli davranmalıdır, o, açıq şəkildə xarici ölkəyə müdaxilə etmək niyyətində deyil. Amma eyni zamanda Tinubu Nigerdəki çevrilişə reaksiya verməyə bilməzdi. İyulun 9-da ECOWAS prezidentliyinə başlayarkən 2020-ci ildən bəri bir neçə hərbi çevriliş görmüş Qərbi Afrikanın daha dözməyəcəyini bəyan etdi. İki həftə sonra Bola Tinubu vədinə əməl etməyə çalışdı. Lakin ekspertlər hesab edir ki, sanksiyalar çox güman ki, prezident Tinubunun edə biləcəyi maksimumdur.

İndiyədək Nigeriya və Mali ECOWAS-da vahid cəbhə kimi çıxış ediblər. İndi deyəsən barrikadaların əks tərəfində idilər, amma indiyə qədər heç nə baş verməyib. Nigeriya və Niger ordularının ümumi düşməni olması, cihadçılarla döyüşməyə öyrəşməsi, bir-birini yaxşı tanıması və qarşıdurmaya çətin hazır olması vacibdir. Belə ki, xüsusilə İtaliyanın xarici işlər naziri Antonio Tajani çərşənbə axşamı bildirib ki, AB diplomatiyası və ABŞ Niger böhranının diplomatik həlli üzərində işləyir. Fransa, Almaniya və İtaliyanın hərbi birləşmələri ilə birlikdə mindən çox Amerika əsgəri də Nigerdə yerləşdirilib.

Çevrilişdən dərhal sonra ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah Rəisləri Komitəsinin sədri general Mark Milli əvvəlcə Nigerdən olan həmkarı general-leytenant Abdu Sidiku İsa, sonra isə Fransa Baş Qərargahının rəisi ilə danışıqlar aparıb. Çərşənbə axşamı ABŞ Milli Təhlükəsizlik Şurasının sözçüsü Con Kirbi Nigerdə hələ də "diplomatiya üçün fürsət" olduğunu söyləyib. Onun sözlərinə görə, ABŞ vəziyyətin inkişafını diqqətlə izləyir və avropalılardan fərqli olaraq hələlik öz vətəndaşlarını təxliyə etməyi planlaşdırmır.

Amerikanın CNN telekanalının qeyd etdiyi kimi, Vaşinqton hələ Nigerdə baş verənlərin çevriliş olub-olmadığına qərar verməyib - bu, hadisələrin hansı keyfiyyəti alacağından, ABŞ-ın bu ölkənin hökumətinə iqtisadi və hərbi yardımı kəsib-kəsməyəcəyindən asılı olacaq. İndiyə qədər baş verənlərin prezidentin onu işdən çıxarmaq istəməsindən qorxan Məhəmməd Bazum və Abdurəhman Çiani arasında daxili münaqişə olduğu versiyası öz üzərinə götürür. CNN həmçinin Pentaqon rəsmisinə istinadən bildirib ki, ABŞ "strateji səbir" nümayiş etdirir və hələ Nigerdəki qüvvələr balansı haqqında dəqiq təsəvvürə malik deyil. Lakin aydındır ki, çevriliş liderləri bölgədəki əhval-ruhiyyə uyğun olaraq anti-Fransa münasibətlərindən istifadə etməyə çalışacaqlar.

Andrey Maslovun fikrincə, Nigerdəki çevriliş ABŞ üçün faydalıdır, çünki o, Fransanı oradan sıxışdırıb çıxara bilər. Vaşinqton bunu yüksək səslə deməsə də, hesab edir ki, Afrikadakı Paris ümumiyyətlə, dünya səhnəsində, xüsusən də Afrika qitəsində Amerikanın əsas rəqibi olan Pekinin tərəfində oynayır. Vəziyyəti başa düşmək üçün Nigerdəki investisiya layihələrinə baxmaq kifayətdir. Məsələn, Beninə neft kəməri: fransızlar onu Çin pulu ilə və Pekin üçün tikirlər.

*Ardı Səh. 6*

# Fransa uduzur və təklənir

Əvvəli Səh.5

## Mali, Burkina Faso və Niger "patç ittifaqı" yaradır

Fransa öz vətəndaşlarının Nigerdən təxliyəsinə başlayır. Afrika ölkəsinin yeni hakimiyyət orqanları Parisdə işğala hazırlandığını bildiriblər. Fransa və Aİ ölkələri bunu inkar edir. Əvvəlki çevrilişləri də görən Burkina Faso və Mali hökumətləri birgə bəyanatda Məhəmməd Bazumu prezidentliyə qaytarmaq üçün Nigeri işğal etməyə cəhd edə biləcək qüvvələrə qarşı müharibə elan etməklə hədələyiblər. Fransa daha bir problemi də həll etməli olacaq: Nigerin yeni hakimiyyət orqanları bu ölkəyə qızıl və uranın ixracını dayandırdığını elan ediblər.

Fransanın xarici işlər naziri Ketrin Kolonna 30 iyulda Fransanın Nigerin paytaxtı Niameydəki səfirliyində baş verən hadisələrdən sonra Fransa vətəndaşlarının təxliyəsinin Parisin yeganə prioriteti olduğunu açıqlayıb. Xarici İşlər Nazirliyinin məlumatına görə, diplomatik missiya Niger təhlükəsizlik qüvvələri nəzarəti tam ələ keçirə bilməyiblər. Qeyd edək ki, Afrika İttifaqının rəhbərliyi faktiki olaraq hərbi ultimatum göndəriblər, onlardan hakimiyyəti iki həftə ərzində devrilmiş prezidentə qaytarmaları tələb olunub. Əks halda nə olacağı çox aydın deyil. Ali Hərbi Şura (çevriliş təşkilatçılarının yaratdığı idarəetmə orqanının adı belədir) ona qarşı tətbiq edilən sanksiyaları pisləyib və müdaxiləni gözlədiyini açıqlayıb. Bazar günü o, Fransanı bunu hazırlamaqda günahlandırıb və eyni zamanda ölkəyə uran və almaz ixracını dayandırmağı tələb edib.




Bununla belə, səfirlikdəki qarşıdurmalar istisna olmaqla, nə Nigerin yeni hakimiyyət orqanları, nə Fransa, nə də Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyində (ECOWAS) Fransanı dəstəkləyən Nigerin afrikalı qonşuları bir-birlərinə qarşı heç bir aktiv hərbi əməliyyatın aparılmasına ehtiyac görmürlər. Amma atmosfer qızışır. Bazumun hakimiyyətdən uzaqlaşdırılmasından dərhal sonra ekspertlər ümumiyyətlə, Niger, Mali və Burkina Fasodakı çevrilişlərin eyni şey olmadığına inanırlar. Ehtimal edilir ki, yeni rəhbərlik dövründə Niger öz xarici siyasətini davam etdirəcək və Qərblə əlaqələri davam etdirəcək.

Bununla belə, Mali və Burkina Fasonun kollektiv bəyanatı göstərir ki, Sahel bölgəsi təkcə bir sıra sarsıntılar yaşamayıb. Onların yeni hakimiyyətləri mövqelərini qorumaq üçün birləşməyə hazırdırlar. Mali və Burkina Faso sanksiyaların nəticələrini yaşayaraq, onların qəbuledilməz olduğunu bəyan ediblər. Onlar xəbərdarlıq ediblər ki, vəziyyəti güc yolu ilə dəyişdirmək cəhdi cihadçıların fəallığını davam etdirən bütün Sahelin təhlükəsizliyinə zərər verə bilər. Nigerdə cənub-şərqdə və cənub-qərbdə güclüdürlər. Onlarla mübarizə aparan daha çox ordu deyil, xarici qüvvələrdir. France24-ün məlumatına görə, Nigerdə təxminən 1500 fransız və 1100 Amerika əsgəri var. Xatırladaq ki, fransız qoşunları Mali və Burkina Fasonu tərk etmək məcburiyyətində qalıblar və qismən Nigerə köçürülüblər.



2021-ci ilə qədər Niger dünyada hasil edilən bütün uranın 6,3%-nə sahib idi. Bu payın 6% olduğu bu göstəricidə Rusiyanı ötüb. Afrika ölkələri arasında uran hasilatına görə Namibiya lider olaraq qalır - 11,4%, mütləq liderlik isə Qazaxıstana məxsusdur - 41,1%. Mütəxəssislər yataqlardan birinin tükənməsi ilə əlaqədar hasilatın müəyyən qədər azalacağını proqnozlaşdırırdılar. Bununla belə, Niger hələ də Fransa üçün əsas uran filizi tədarükçüsü olaraq qalır. O, nüvə enerjisi istehsalında dünya liderlərindən biridir. Fransanın 56 reaktoru var ki, bu da ölkənin enerji ehtiyacının üçdə ikisini ödəyir.

Ayrı-ayrılıqda vurğulamaq yerinə düşərdi ki, son vaxtlara qədər Niger uranı (24%) əsasən Aİ ölkələrində reaktorlar üçün istifadə olunurdu, sonrakı yerləri isə Qazaxıstan (23%) və Rusiya (20%), Avstraliya (16%) və Kanada (14%) tuturdu. Buna görə də Fransa hökuməti nümayəndələrinin ölkənin konkret tədarükçülərdən asılı olmadığı və Nigerdə baş verən hadisələrin uranın qiymətini artırmayacağına dair verdiyi təminatlarla razılaşmaq çətin deyil. Bu şəraitdə Nigerə təsir uğrunda mübarizə ciddi gedəcəyini vəd edir. İşlərin müdaxiləyə gələcəyi fakt deyil və təbii ki, bir Afrika ölkəsi üzərində nəzarətin itirilməsinin Fransanın nüvə sənayesinin çökməsinə gətirib çıxaracağı da fakt deyil. Sadəcə olaraq benefisiarlar, məsələn, Kanada, Qazaxıstan və Avstraliya ola bilər. Buna baxmayaraq, Qərb Niger hakimiyyəti ilə qarşılıqlı əlaqə problemini həll edəcək.

Bu, inkişaf etməkdə olan ölkələrin Qərbin neokolonial sistemi ilə mübarizəsidir. Resursların boşaldılması, texnoloji qadağalar, dolların və müəyyən dərəcədə avronun maliyyə boğulması - bu, yüksələn Qlobal Cənubun üsyan etdiyi "qaydalara əsaslanan" dünyadır.

## Türkiyə dünya siyasətinin mərkəzini şərqə çevirdiyini açıqladı

Emmanuel Makron ikinci prezidentlik müddətinin 100 günü münasibəti ilə xalqa müraciət edib. Söhbət əsasən daxili və iqtisadi siyasət problemlərindən, o cümlədən iyunun sonu və iyulun əvvəlində Fransanı silkələyən dörd gecə iğtişaşdan alınacaq dərslərdən gedirdi. Prezident təhlükəsizlik məsələlərinin onun diqqət mərkəzində olacağına söz verib. Eyni zamanda, Makron iğtişaşların miqyasını azaltmağa və onlarla məşğul olan səlahiyyətlilərə hörmət etməyə çalışıb. Maraqlıdır ki, Makron onların əksəriyyətindən - Fransanın xaricdəki ərazisi olan Yeni Kaledoniyadan 18 min km məsafədə olan həmyerliləri ilə ünsiyyət qurub. Buna görə də, o, xarici ərazilərə verdiyi diqqəti beynəlxalq vəziyyət və Çin və ABŞ arasında Hind-Sakit okean regionunda artan rəqabətlə əlaqələndirib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan şənbə günü bildirib ki, Qərb dünyadakı mərkəzi mövqeyini itirir. "Beynəlxalq sistemin son transformasiyasını qeyd edən günlər gəldi. Yeni geosiyasi və geoiqtisadi tənlik yaranır, onun mərkəzində Asiya yer alır. Qərb dünyası mərkəzi mövqeyini itirdiyi bir vaxtda biz görürük ki, dünya siyasətinin mərkəzi şərqə, ata-baba torpaqlarımıza doğru sürüşür", - deyə o, Cənubi Koreyanın xarici işlər naziri Pak Çinlə danışıqlardan sonra Ankarada keçirilən mətbuat konfransında vurğulayıb. Nazirlər ikitərəfli münasibətlərin möhkəmləndirilməsi yollarını müzakirə edərək, ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılmasını qarşıya məqsəd qoyublar. Bundan başqa, tərəflər Şimali Koreya ətrafında vəziyyətə toxunublar.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var***

***Bütün dünyada, eləcə də Azərbaycanda da ən böyük leqal və moral cinayətlərdən biri uşaqların cinsi istismarı - pedofiliyadır. Yetkinlik yaşına çatmış şəxslərin yetkinlik yaşına və ya həddi-büluğa çatmamış uşaqlara qarşı seksual maraqları pedofiliya adlanır. SİA bu mövzuda tanınmış ekspertlər arasında sorğu aparıb.***

**Hüquqşünas Şamil Paşayev yetkinlik yaşına çatmayanlarla nikaha daxilolma və cinsi əlaqə zamanı cinayət məsuliyyəti və tətbiq edilən cəzalar barədə danışıb:** "Uşaq hüquqları haqqında konvensiyaya





# Pedofiliya: Uşaqları qorumalı olduğumuz təhlükə

əsasən 18 yaş son yaş həddidir və bu yaşdan aşağı şəxslər uşaq, həddi-büluğa çatmamış hesab olunur. Uşaqların nikaha daxil edilməsi insan hüquqlarının pozulması hesab olunur. Azərbaycan Konstitusiyasında konkret olaraq qeyd edilib ki, nikah könüllü bağlanır, tərəflərin iradəsinə əsasən olur. Yetkinlik yaşına çatan və ya çatmayan şəxslərin məcburi nikaha daxil edilməsinə yol vermək qanunsuz və əsassızdır. Zorla həyata keçirilən nikah cinayətdir. Eyni zamanda, yetkinlik yaşına çatan şəxsin belə arzulamadığı şəxslə məcburi ailə qurması qanunla qadağan edilir.

Cinayət Məcəlləsinin 176-1.1-ci maddəsinə görə qadının nikaha daxil olmasına məcbur etmək cinayət hesab edilir. 176-1.2-ci maddəyə görə isə nikah yaşına çatmayan şəxsi nikaha daxil olmağa məcbur etmə araşdırılır və cinayət hesab edilir. Yetkinlik yaşına çatmayan şəxsi nikaha cəlbetmə valideynlər tərəfindən icra edilsə belə cinayətdir.

Həddi-büluğa çatmayan qızı nikaha daxil olmağa məcburetmə 3000 manatdan 4000 manata qədər cərimə, 4 ilədək azadlıqdan məhrum etməylə cəzalandırılır və məcbur edən şəxsin atası və ya anası olmasının da heç bir əhəmiyyəti yoxdur.

Həddi-büluğa çatmamış şəxslərlə nikaha daxil olan şəxslər də məsuliyyəti anlamalıdır ki, 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olma cinayət məsuliyyəti yaradır, 1 ildən 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu cəza şəxsin yetkinlik yaşına çatmayan qızı həyat yoldaşı kimi qəbul etməsi halında da keçərlidir. Könüllü olsa belə 14 yaşına çatmayan uşaqlarla cinsi əlaqə zamanı 3 ildən 6 ilə qədər müddətinə azadlıqdan məhrumetmə ilə cəza verilir.

16 yaşına çatmayan şəxslərlə cinsi əlaqə o vaxt cinayət məsuliyyəti yaradır ki, zərərçəkmiş şəxslə əməli törədən şəxs arasındakı yaş fərqi 2 ildən çox olur".

**Psixoloq Fuad Əsədov pedofiliya qurbanlarının yaşadığı travmalar, eyni zamanda, uşaqları hədəf alan pedofillərin davranışları barədə danışıb, xüsusilə də valideynlərə xəbərdarlıq edib:** "Pedofiliya inan psixologiyasına həddindən artıq çox zərər verən bir şeydir çünki söhbət uşaqlara qarşı edilmiş uyğunsuz və zərərli



davranışlardan söhbət gedir. Bu zərərli davranış cinsi istiqamətdədir. Bir fakt qeyd edim ki, 5-7 yaş aralığındakı uşaqlar, hətta bəzən 4 yaşındakı uşaqlar ən çox pedofiliyaya məruz qalanlardır. Çünki pedofillər də bilirlər ki, uşaqlar bu dövrdə onlara nə edildiyini anlamırlar və qorxurlar, digər tərəfdən pis bir şey olduğunu başa düşsələr də tam olaraq nə olduğunu bilmirlər, utanırlar, valideynlərə də demirlər. Pedofillər də eyni zamanda, uşaqları çox asanlıqla qorxuda bilirlər, manipulyasiya edirlər, heç kimə deməməyi tapşırırlar. Bəzi hallarda pedofil uşağın özünü atası da ola bilər, öz övladına bu davranışı sərgiləyən şəxs "atayam, ataya qarşı çıxmaq olmaz, atanın sözünə qulaq asmaq lazımdır" kimi sözlərlə də uşağa bir növ "mənəvi borc" yükləyir, uşaq səsini də çıxara bilmir. Narahat olan uşaq digər tərəfdən buna qarşı çıxmağın yanlış olduğuna inanır, zərər görməyə başlayır, psixologiyası, təsəvvürləri, dünya haqqındakı düşüncə strukturu dağılmağa başlayır.

Pedofiliyaya məruz qalan uşaq böyüyüb başına gələnləri anlayandan sonra da bunu qəbul edə bilmir, yaşamaqda çətinlik çəkir, özünü çirklənmiş, ləkələnmiş, istifadə olunmuş hiss edir, özünü tərk edilmiş, sevilməyən, dəyərsiz olaraq görməyə başlayır. Burada istənilən tipdə psixoloji pozğunluq yaranmağa başlayır. Uşaqlıq dövründə də bundan narahat olduqları üçün özlərinə qapanma, depressiya, panik pozuntular və s. kimi psixoloji problemlər baş verir. Böyüyüb başına gələnləri dərk etdikdən sonra isə daha çox əzab çəkməyə başlayırlar.

Pedofillər ailə daxili olanda öz qurbanlarını "əminin sözündən çıxma", "dayının sözündən çıxma", "nə problem var ki, biz ata-övladıq" və s. kimi uşağa "mənəvi borc" yükləyərək onları manipulyasiya edirlər. Yad insanlar isə məsələn, uşağı öz sevdiyi məşğuliyyətə apararaq manipulyasiya edirlər, qurbanı olacaq uşağı seçib həmin uşağa hədiyyə verirlər, məktəb çıxışı onlarla oynayırlar, istədikləri yerə aparırlar və uşağın rəğbətini, güvənini qazanırlar. Daha sonra uşağı tək başına qala biləcəyi yerlərə aparırlar və ondan sonra öz niyyətlərini həyata keçirirlər. Bəzən bu, sadəcə öpmə, toxunma tərzində olur, bir çox hallarda isə konkret təcavüz formasında olur.

Uşaqları pedofillərdən qorumaq üçün ilk növbədə onlara üstü örtülü şəkildə məlumat vermək, uşaqları öyrətmək lazımdır. Uşaqlar bilməlidirlər ki, pis insanlar var və onlara zərər verə bilərlər. Uşaqlara tapşırmaq lazımdır ki, kimsə onlara narahatlıq verərsə valideynlərə demək lazımdır, zərər gördükləri anda qışqırmaq lazımdır. Məsələn, kimsə yolda uşağın qolundan tutub aparır, o zaman uşaq qışqırıb kömək istəməli, "mən bu adamı tanımıram" cümləsini deməlidir. Çünki bəzən küçədə bir böyüyün uşağı məcbur dartıb apardığını görəndə insanlar düşünə bilər ki, uşaq dəcəllik edib və qarışmayacaqlar. Uşaq "mən tanımıram, mənə kömək edin" qışqırarsa digər insanlar köməyə gələcəkdir. Uşaqlara öyrətmək lazımdır ki, yad, tanımadığı insanların əlindən konfet kimi yeməli heçnə götürməsin. Çünki onun içində yuxu dərmanı, hətta narkotik vasitə də ola bilər. Eyni zamanda, uşaqlarla ailə parolu təyin edilməlidir. Məsələn, yad insan uşağa yaxınlaşıb "məni sənin atan göndərib", "səni atanın yanına aparacam" deyə bilər. Bu məqamda uşaq həmin adamdan ailə parolunu sorşacaq və valideyni tapşıran adama demiş olmalıdır. Ailə şifrəsi hər sözdən ola bilər.

Ən önəmli məsələlərdən biri də, uşaqların şəklini, şəxsi məlumatlarını sosial şəbəkələrdə paylaşmamaqdır. Çünki pedofillərin əksəriyyəti məhz sosial şəbəkələrdən qurbanlarını tapırlar, seçirlər. Müəyyən uşağın ailəsini, yaşadığı yeri, oxuduğu məktəbi öyrənə bilərlər. Hətta uşağın şəxsi əşyalarının üstünə məsələn, su, yemək qabının üstünə uşağın adını yazmamağa da diqqət etmək lazımdır. Valideynlər bəzən əşya itəndə asan tapılması məqsədilə bəzən ünvan da yazırlar, lakin bu itən əşya pis məqsədləri olan adamların da əlinə keçə bilər. Bu cür şeylərə xüsusilə diqqət etmək lazımdır.

Uşaqlara öyrətmək lazımdır ki, istisnasız heç kim onlara toxuna bilməz. Xüsusilə çiyin, əllər, ayaqlar, qarın bölgəsi, bel hissələrə heç kimin toxunmasına icazə vermək olmaz. Sadəcə valideynlər uşaqları yuyanda, çimdirəndə toxuna bilər. Bu istisna hallarından başqası isə olmaz. Kimsə toxunan zaman isə uşağa qışqırıb və uzaq durmağı öyrətmək lazımdır".

**Sosioloq Lalə Mehralı isə pedofiliya**



**və yaş fərqi ilə evlənən cütlüklərin fərqindən danışıb, bunların fərqli anlayışlar olduğunu izah edib, maarifləndirmə işlərinin əhəmiyyətini vurğulayıb:** "Bəzən pedofiliya və aralarında yaş fərqi olan cütlüklərin ailə qurması məsələlərini qarışdırırlar. Pedofiliya yetkinlik yaşına (həddi-büluğa) çatmamış uşaqla evlənmək və ya münasibətə girməsidir. Amma arasında yaş fərqi olan cütlüklərin evlənməsi pedofiliya sayılmır - məsələn, 25 yaşında qadının 40 yaşında olan kişi ilə ailə qurması pedofiliya deyil, çünki hər ikisi həddi-büluğa çatmış şəxslərdir. Bu da şəxsi seçimdir. Pedofiliya isə həddi büluğa çatmayan insanların istismarıdır. Azərbaycanda da belə hallar var, buna erkən nikahları da misal göstərmək olar. Çünki Azərbaycanda erkən nikaha məcbur edilən qızların əksəriyyəti özündən 10-15 yaş böyük kişilərlə izdivaca məcbur edilirlər. Buna görə də fikrimcə, bununla bağlı aparılan maarifləndirmə, məlumatlandırma işləri yetəri qədər deyildir. Ailələr pedofiliyanın nə olduğunu bilmirlər və ya bəsit formada bilirlər, etinasız yanaşırlar. Bu səbəbdən bu mövzu yaxşı və ciddi formada araşdırılmalı, ölçü götürülməlidir. Bəzən sadəcə maarifləndirmə, məlumatlandırma işlərindən kifayətlənirlər və məsuliyyətə cəlbedilmə işləri o qədər də geniş tətbiq edilmir. Halbuki pedofiliya halları zamanı cinayət işi açılmalı, cəza verilməli və bu cür hallar baş verərsə nə olacağı, nə ilə nəticələnəcəyi barədə cəmiyyətə məlumat verilməlidir. Məlumatlandırılma yüksək səviyyədə olmalıdır ki, insanlar əməllərinin nəticəsinin nə olacağını bilsinlər".

***Aysel Naibli***

# Gözəlliklər şəhəri, tarixin özü qədər qədim olan ŞUŞA!




## İLHAM ƏLİYEV: "Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır"

***Şuşa gözəlliklər şəhəridir, Şuşa mədəniyyət paytaxtıdır, Şuşa tarixin özü qədər qədimdir! Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır. Ən böyük mesaj isə bu gün getdikcə çiçəklənən və dirçələn Şuşanın özüdür!***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 8-də Şuşaya etdiyi səfərləri və bu səfərlər çərçivəsində təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirib. Qələbəmizdən iki il keçməsinə baxmayaraq Şuşa inkişaf edir, gözəlləşir. Çünki Şuşa Azərbaycan üçün adi şəhər deyil, milli qürur, milli mənlik, mədəniyyət, incəsənət, tarix deməkdir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Bəli, məhz Şuşa Zəfərimizin tacı olduğu










üçün Prezident İlham Əliyev mayın 8-də ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına təbrik müraciətini Şuşadan edib: "Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam".

"Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır", - deyə Azərbaycan Prezidenti bildirib.

Dövlətimizin başçısı müraciətində bildirib ki, Şuşa 1992-ci ilin may ayında məhz milli xəyanət və satqınlıq nəticəsində düşmənə təhvil verilib: "Şuşa alınmaz qaladır. Bunu hər kəs bilir. Məhz hakimiyyətə gəlmək üçün Şuşanı boşaltdılar. Şuşa işğal olunandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəlmiş və öz arzusuna çatmışdır".

Qarabağ probleminin həllini tapmadığını, hakimiyyətdə olanların ancaq şəxsi mənafeyini düşündüklərini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Talançılıq, soyğunçuluq, özbaşınalıq, anarxiya, xaos, torpaqlar əldən gedirdi, ovaxtkı AXC-Müsavat hakimiyyəti isə Ermənistana yanacaq satırdı. Görün, bu insanlar öz xalqına nə dərəcədə nifrətlə yaşamışlar ki, bu ağır günlərdə öz ciblərini doldurmaq üçün bu çirkin əməllərə də əl atmışlar. Hakimiyyətdə qalmaq üçün hətta vətəndaş müharibəsinə də rəvac verdilər".

Belə bir şəraitdə Şuşanın işğal olunduğunu vurğulayan dövlətimizin başçısı ondan sonra faciələrimizin daha da artdığını bildirib: "Şuşa işğal olunandan sonra Laçının taleyi də demək olar ki, böyük təhlükə altında idi və on gün sonra Laçın da işğal olundu. 1993-cü ilin aprelində isə Kəlbəcər işğal olundu və beləliklə, Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı".

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU ŞUŞANI, QARABAĞI VƏ ZƏNGƏZURU AZAD GÖRMƏK İDİ

"Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik",- deyən Qalib Lider Prezident İlham Əliyev onu da bildirdi ki, il başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır: "Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır".

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

### ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: "Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm"

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bəli, bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 19 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev Şuşadan xalqa müraciətində də bildirdi: "2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq".

Bəli, bu gün Qarabağ, zəngəzur yenidən qurulur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Bu gün Şuşa 30 ildən sonra 8 mayı azad, qalib xalq kimi qarşılayır. Və bu gün Şuşa böyük quruculuq, inkişaf yolundadır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 8-də Şuşaya səfərləri, səfər çərçivəsində görülən işlər bir daha deyilənlərin reallığıdır.

Bir sözlə, Prezident İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, biz 44 gün ərzində möhtəşəm qələbə qazandığımız kimi, Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq.

Bəli, 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı. Əziz Şuşa, 30 ildən sonra artıq qələbəmizin ikinci ilidir ki, 8 mayı azad qarşılayırsan! Dövlət başçımızın dediyimiz: "Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**RƏFİQƏ KAMALQIZI**

# İnformasiya müharibəsində də Azərbaycana
# QƏLƏBƏ QAZANDIRAN LİDER



**Azərbaycanın mükəmməl qələbəsi ilə savaş bitsə də, informasiya müharibəsi hələ bitməyib və nə qədər davam edəcəyi də bəlli deyil. Bir halda ki, ermənilər, onların xarici ölkələrdəki lobbiləri, eləcə də ermənipərəst qüvvələr hələ də şər və böhtan kampaniyasına əl atırlar, yalan, həqiqətə uyğun olmayan məlumatları dövriyyəyə buraxırlar, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar və bununla da Azərbaycanı öz ədalətli, haqlı mövqeyindən geri çəkilməyə məcbur etmək üçün bütün səylərini səfərbər edirlər, deməli, informasiya müharibəsində də qələbə qazanmaq gərəkir. Bu baxımdan da, Azərbaycan Prezidenti cənab İlham Əliyevin informasiya müharibəsində bu zamana qədər əldə etdiyi qələbələr, hər dəfə ermənilərin informasiya təbliğatını darmadağın etməsi Azərbaycan tarixinə qızıl hərflərlə yazılır.**

44 günlük müharibədə Azərbaycanı geri addım atmağa məcbur edə bilməyənlər indi çabalamaqlarına baxmayaraq yenə də əmindirlər ki, informasiya müharibəsində də ölkəmizi buna məcbur edə bilməyəcəklər. Çünki yaxşı bilirlər ki, İkinci Qarabağ savaşı zamanı cəbhədə gedən və qələbəyə aparan döyüşlərə komandanlıq edən, eyni zamanda, diplomatik masada mübarizə aparıb hər dəfə qalib gələn, həmçinin informasiya cəbhəsindəki döyüşə rəhbərlik edərək yenə də qələbəmizi təmin edən Azərbaycan Prezidenti, İlham Əliyev fenomeni qarşısında acizdirlər. Cəbhədə döyüş meydanında rüsvayçı şəkildə məğlub olan Ermənistan informasiya cəbhəsində beynəlxalq ictimai rəyi manipulyasiya etməyə nə qədər çalışsa da, Azərbaycan Prezidenti hər dəfə işğalçı ölkənin yalan maşınını darmadağın edir və informasiya müharibəsində də xalqımıza qələbə bəxş edir.

Laçın sərhəd-keçid məntəqəsi ilə bağlı Ermənistan tərəfinin, bütövlükdə ermənipərəstlərin, onların havadarlarının beynəlxalq müstəvidə apardıqları təbliğat, daha doğrusu, yaydıqları yalan, apardıqları şər, böhtan komaniyası da informasiya müharibəsinin davam etdiyini və hayların hələ də məkrli niyyətlərindən əl çəkmədiklərini, ölkəmizi geri çəkilməyə vadar etmək, məcbur etmək cəhdlərini isbat edir. Dırnaqarası "yardım" tamaşası qurmaları da səbəbsiz yerə deyildi və bu, həmin çirkin niyyətlərinin reallaşdırılması üçün növbəti həyasızlıqları sayılır. Guya "humanitar fəlakət" kimi qələmə verməyə çalışmalarında da məqsəd ölkəmizi nəyə isə vadar etmək, öz mövqeyindən geri çəkilməyə məcbur etmək niyyətindən irəli gəlir. Azərbaycana məxsus Qarabağ iqtisadi rayonunda yaşayan, yaxud sonradan məskunlaşdırılan erməni əsilli insanların guya tamamilə təcrid olunduqları görüntüsünü yaratmağa çalışan, beynəlxalq ictimaiyyəti çaşdıraraq onların guya "humanitar böhran" içərisində olduğunu göstərmək istəyənlər sanki sərhəd-keçid məntəqəsinin erməni əhalinin keçidi, xəstələrin daşınması üçün açıq olduğunu bilmirlər. Elə bir təəssürat yaratmaq istəyirlər ki, guya onlar fəlakət həddindədirlər və buna da səbəbkar Azərbaycandır. Halbuki, əvvələ, post qurulandan indiyə qədər ümumiyyətlə bağlanmayıb, eyni zamanda, rəsmi Bakı axı öz suveren ərazisinə yüklərin daşınması üçün Ağdam-Xankəndi marşrutunu da təklif edir. Bütün bunların fonunda Ermənistan beynəlxalq ictimaiyyətin diqqətini bu reallıqdan yayındırmağa çalışır, bunun üçün yalan maşınını işə salır, anti-Azərbaycan qüvvələr də həvəslə bu yalanların tirajlanmasına köməklik edirlər. Amma bunlar hərbi, diplomatik və informasiya cəbhəsinin qalibi olan İlham Əliyev fenomenini unudan qüvvələrdir və görünür, onlara da bunu mütəmadi olaraq xatırlatmaq lazım gəlir.

Görünür xatırlatmaq lazım gəlir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu vaxta qədər Ermənistanın informasiya təbliğatını dəfələrlə darmadağın edib və elə informasiya müharibəsinin də qalibi olaraq ölkəmizə qələbə qazandıran lider kimi tanınır. Yenə də ölkə rəhbərimiz Ermənistanın Laçın keçid məntəqəsi ilə bağlı qurduğu təbliğatı yerlə yeksan etdi və "Euronews" televiziyasına müsahibəsində ermənilərin yalanlarını, uydurmalarını çoxmilyonluq auditoriya qarşısında ifşa etdi. Sərhəd-keçid məntəqəsinin qurulmasından indiyə qədər Qarabağın 2 mindən artıq erməni əsilli sakininin yoldan heç bir problem olmadan istifadə etdiyini, Ermənistana gedib-gəldiyini həmin auditoriyaya bəyan edən ölkə rəhbərimiz Laçın yolu barədə ermənilərin spekulyasiyalarının mənasız olduğunu sübut etdi və onların bütün dünyanı, beynəlxalq təşkilatları çaşdırmaq arzularını da puça çıxardı. Təkcə bu, informasiya müharibəsində qələbə qazanmaq deməkdir, amma Azərbaycan Prezidenti bununla da kifayətlənmədi və Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli əhalinin gələcəyi ilə bağlı proqramı da beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqla ermənilərin uydurmalarının əsassız, oyunlarının mənasız olduğunu görsətdi ki, bu özü də daha bir qələbədir. Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilərə təhsil, mədəniyyət, dini və bələdiyyə hüquqlarının veriləcəyi, təhlükəsizliklərinin təmin olunacağı barədə bəyan etməklə isə ölkə rəhbərimiz ermənilərin ölkəmiz barədə "etnik təmizləmə" kimi absurd iddialarının yalan olduğunu da sübuta yetirdi. Özü də bunu beynəlxalq ictimaiyyət qarşısında etdi və həmin yalanları tirajlamaqda ermənilərə kömək edənlər də, separatçıları dəstəkləyənlər də öz hesablarını aldılar, hansı ki, bu, elə informasiya cəbhəsində qazanılan mükəmməl qələbə deməkdir.

Cənab Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Qarabağdakı erməni əhalisinə seçim təqdim etməklə, ölkəmizin vətəndaşlığını qəbul edəcək ermənilərə, Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq, normal həyat yaşayacaqlarını söyləməklə, bu zamana qədər onlara ancaq fəlakətlər gətirən separatçı rejimlə bizim fərqimizi dünyaya, eləcə də onların özlərinə göstərdi, hansı ki, bu, ermənilərin əleyhimizə olan yalan təbliğatının fiaskosu deməkdir. Bu, separatçı ermənilərə, onların yalan təbliğatına dəstək olanlara, kömək edənlərə tərs sillə effekti verdi. Çünki dünya ictimaiyyəti, ölkəmizi guya "humanitar böhran" səbəbkarı kimi qələmə vermək istəyənlərin yalan təbliğat apardığına, onların ümumiyyətlə yalançı olduqlarına, Azərbaycanın isə humanizm nümayiş etdirən bir ölkə olduğuna əmin oldu. Əmin oldu ki, öz ərazisində yaşayan digər xalqların nümayəndələrinə normal həyat bəxş etmək niyyətində olan bir ölkə Ermənistan tərəfinin yalandan uydurduğu, təbliğat apardığı kimi, "humanitar fəlakət" səbəbkarı ola bilməz və əgər, bundan sonra hansısa fəlakət dedikləri müşahidə edilsə belə bunun səbəbkarı elə ermənilər özləri ola bilərlər. Bax, elə informasiya müharibəsinin qalibi olmaq belə olur və həqiqətən Azərbaycan Lideri bu qələbələri də öz ölkəsinə, öz xalqına mütəmadi olaraq bəxş edir.

Torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən müharibədə mükəmməl qələbəyə imza atan, ölkəmizin dövlət sərhədini Araz çayından Murov dağına qədər praktiki olaraq təmin edən, ardınca da Laçında post quran və "Laçın dəhlizi" məsələsini tamamilə arxivə göndərən bir ölkə liderinin, cənab Prezident İlham Əliyevin hər bir məqsədinə nail olduğunu təkcə dünya ictimaiyyəti deyil, elə ermənilər, daha çox da Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsillilər özləri də gördülər. Gördülər ki, Azərbaycan Prezidenti qarşıya qoyduğu məqsədə nail olmaq əzmində olan və hər dəfə də istədiyinə nail olan, istənilən vədinə əməl edən, dövlətimizin və xalqımızın milli maraqlarını hər şeydən üstün tutan və bundan sonra da üstün tutacaq siyasi iradəyə sahib olan bir liderdir. Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər özləri də gördüklərindən sonra bir daha əmin oldular ki, Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilərə cəmiyyətimizin bir hissəsi olaraq, normal həyat yaşayacaqları vədi də sadəcə sözdən ibarət deyil. Onlar görürlər ki, rəsmi Bakı Qarabağdakı erməni əhalisinin reinteqrasiyası istiqamətində addımlar atır və əmindirlər ki, Azərbaycan Prezidenti dediyinə əməl edəcək və onun təklifi qəbul olunduğu təqdirdə həqiqətən də onların hüquq və təhlükəsizlikləri təmin olunacaq və təhlükəsiz şəraitdə, normal, asudə, rahat və firavan yaşayacaqlar. Bilirlər ki, bu çağırış, eləcə də seçim imkanının verilməsi ritorika deyil, Azərbaycan Prezidentinin, cənab İlham Əliyevin atacağı praktiki addımların anonsudur və reallığa çevriləcəyinə zərrə qədər də şübhə yoxdur. Bax elə bu məqam, yəni erməni əsilli insanların belə öz liderlərinə deyil, məhz Azərbaycan Prezidentinə inanması, etibar etməsi özü də onun qələbəsidir, informasiya müharibəsində, şər üzərində qələbəsi.

Bu reallıqları şübhəsiz ki, dünya ictimaiyyəti görür, bilir və qəbul edir. Məsələ burasındadır ki, ermənilərin uydurma yalanlarla çaşdırmaq istədiyi, bəlkə də çaşdıra bildiyi bir qrup insanların, qüvvələrin, təşkilatların da həmin reallıqları qəbul etməsi vacib məqamdır və etiraf edilməlidir ki, ölkə rəhbərimiz məhz hər dəfə dünyanın tanınmış mətbuat orqanlarına müsahibə verdikdən sonra çaşqınlıq içərisində olanlar da Azərbaycan həqiqətlərini qəbul etməli olurlar, erməni uydurmalarını yox, təbii ki, əgər ermənipərəst və ikiüzlü deyillərsə. Elə "Euronews" televiziyasına müsahibəsi ilə də cənab Prezident erməni yalanlarını ifşa etməklə, onların uydurma olduğunu isbatlamaqla, ölkəmizin haqq işi uğrunda ədalətli mübarizə apardığını sübut etməklə, informasiya müharibəsində növbəti dəfə qələbəyə imza atdı. Bu dəfə də informasiya savaşında ölkəmizin parlaq qələbəsi düşmənlərin gözünü kor etdi və təkcə biz yox, hər kəs əmin oldu ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev təkcə hərb meydanında, diplomatik müstəvidə deyil, elə informasiya müharibəsində də Azərbaycana qələbə qazandıran liderdir.

***İnam Hacıyev***






# Şuşada Hacıbəylilər şəcərəsi

Qarabağ bölgəsində yerləşən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ölkəmizin ən mühüm şəhərlərindən biri olmuşdur. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəlləri yaranıb. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırılan Şuşada 17 məhəllə vardı və hər məhəllədə hamam, məscid və bulaq yerləşirdi. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. Bu tarixi şəhərdə məşhur şəcərələr, nəsillər yetişmiş, əməlləri, istedadları ilə silinməz salnamələrə həkk olundular. Şuşanın məşhur nəsillərindən olan Hacıbəylilərin fəaliyyəti bu şəhərin ictimai-mədəni həyatında silinməz iz salmışdılar.

Xatırladaq ki, Hacıbəylilərin ulu babası Molla Hacı bəy Qarabağı olmuşdur. O, Şuşa şəhərində sayılıb-seçilən, savadlı bir alim idi. Məhəllələrin dini işləri ilə məşğul olurdu. Molla Hacı bəyin Məhəmməd bəy adlı oğlu var idi. Qızı Bəşirət xanım Nəsib bəy Yusifbəylinin nənəsidir. Məhəmməd bəy 1814-cü ildə Şuşada anadan olmuşdu. O, mədrəsə təhsili almış və Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin hərəmi Bikə ağanın sarayında mirzə işləmişdi. Məhəmməd bəy göstərdiyi xidmətlərinə görə xan Vərəndə mahalının İsfəhançıq kəndinin bir hissəsini ona bağışlamışdı. Molla Məhəmməd bəyin Qəhrəman bəy, Əbdüləziz bəy, Əbdülhüseyn bəy və Hacı bəy adlı oğulları vardı. Molla Hacı bəyin törəmələri Hacıbəyli soyadını daşıyırlar.Hacıbəylilər şəcərəsinin ictimai-mədəni həyatımızda rolu müstəsnadır. Əbdülhüseyn bəy Hacıbəyli, İsmayıl bəy

Hacıbəyli, Zülfüqar Hacıbəyli, Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Soltan Hacıbəyli, Niyazi Tağızadə-Hacıbəyli və başqaları öz fəaliyyətləri ilə tanınaraq, seçilmişdilər.

### AZƏRBAYCAN MUSİQİLİ TEATRININ YARANMASI

XX əsrin ilk illəri Azərbaycan musiqi sənəti üçün intibah və inkişaf dövrüdür. O illərin zəngin sənət tarixi neçə-neçə onilliklər belə əvəzlədi. Həmin dövrdə Bakının musiqi həyatı qaynar olsa da, ictimai-siyasi hadisələrin gedişatı müxtəlif maneələrin yaşamasına gətirib çıxarmışdır. Tarixdən bizə bəllidir ki, həmin illərdə Azərbaycan musiqi tarixində də inqilabi dəyişikliklər baş verirdi. Bu dövr musiqinin mühüm xüsusiyyəti, xalq musiqisinin geniş təbliği - Şərq konsertləri adlandırılan böyük konsertlərin təşkili, Azərbaycanda milli operanın yaranması, qrammafon vallarının yazılması ilə tarixə həkk oldu. Azərbaycanın mütərəqqi dünyagörüşlü ziyalıları xalqın yeni mədəni ənənələrlə tanışlığı istiqamətində böyük işlər görürdü. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının tamaşaya qoyulması Azərbaycanın musiqi həyatına xüsusi bir yenilik gətirdi. Bu, nəinki Azərbaycanda, bütün Yaxın Şərqdə ilk opera idi və bu opera ilə yeni sənətin möhtəşəm özülü qoyuldu. Üzeyir Hacıbəyli ilə yanaşı, qardaşı Zülfüqar Hacıbəyli də əsrimizin ilk illərindən başlayaraq, Azərbaycan musiqili teatrının yaranması uğrunda mübarizəyə qoşulmuş, məhz onun müstəqil bəstəkarlıq fəaliyyətinin ilk təcrübələri də həmin dövrlə bağlıdır. "Əlli yaşında cavan", "Evliykən subay", "On bir yaşında gəlin" və ya "Varlı" operettaları, "Aşıq Qərib" operası, bir sıra kütləvi mahnılar və s. əsərləri yaradıcılığı üçün səciyyəvidir.



1911-ci ildə Üzeyir bəy və Zülfüqar bəy Hacıbəylilərin rəhbərliyi ilə opera-operetta artistləri truppası yarandı. O dövrün bir sıra məşhur artistləri truppanın tərkibinə daxil olmuş, Bakıda Qafqazın başqa şəhərlərində tamaşalar göstərmişlər. Truppanın qastrol səfərlərində repertuarı Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun" musiqili komediyaları, Z.Hacıbəylinin "Aşıq Qərib" operası, "Evliykən subay" musiqili komediyasından ibarət idi.Bəstəkarın M.Füzuli adına Azərbaycan Əlyazmalar Fondunda saxlanılan şəxsi arxivində əldə olunan materiallar onun zəngin irsi ilə tanışlıq yaradır. Belə ki, "Onda elə, indi belə", "Yarış" operettaları "Mən ağlaram, o gülər" komediyası, "Biçarə Xavər", "Məşədi Xudu" operettaları, "Məlikməmməd", "Nüşabə" operaları və s. musiqili komediya, opera librettosu, musiqi qeydləri ilə yanaşı, bəstəkarın bir neçə məqaləsi də saxlanılır. Bu əsərlərlə tanışlıq Azərbaycanın mədəni-tərəqqisinin hər zaman inkişafda olduğunu göstərən faktdır.

### MİLLİ MUSİQİSİNDƏ YENİLİK

Milli mədəniyyət tariximizdə - opera sənətinin, eyni zamanda, musiqi teatrının təşkili və inkişafında xidmətləri olan sənət adamları sırasında göründüyü kimi Zülfüqar Hacıbəylinin öz imzası var. Ümumilikdə isə, sənətin inkişafında Hacıbəylilər ailəsi pozulmaz səhifələr yazıb. Zülfüqar Hacıbəylinin da musiqi teatrımızın inkişafı yolunda yazıb-yaratdıqları əsərlər əsil fədakarlıqdır. Onun tərcümeyi-halından oxuyuruq. Zülfüqar Hacıbəyli 1884-cü ildə Şuşa şəhərində anadan olub. Uşaqlıq illəri bu ecazkar musiqi beşiyində keçib. Erkən yaşlarından şəhərin musiqi məclislərində iştirak edib, istedadlı xanəndələrin ifasında xalq mahnılarını dinləyib. Demək olar ki, şəhərin mədəni ab-havasının ona gələcək həyat yolunu müəyyən etməkdə xeyli təsiri olub. Gənc yaşlarından musiqiyə əbədi bağlanan Zülfüqar Hacıbəyli ilk biliyini xalq musiqisindən alıb. O dövrdə, yəni XX əsrin əvvəllərində opera və operetta yazmaq Azərbaycan musiqisində yenilik idi. Onun yaratdığı-bəstələdiyi əsərlərdən biri "Aşıq Qərib" operasıdır. O vaxt bu əsər ictimai-mədəni həyatda böyük marağa səbəb olur. Əsərin səciyyəviliyi onda idi ki, opera xalq musiqisi ilə Avropa musiqisinin sintezini özündə əks etdirirdi. Həmin dövrdə Zülfüqar Hacıbəyli bir sıra librettolara musiqi yazır. Sənət tariximizdə onun "50 yaşında cavan" (1910), "Varlı" (1911), "Evliykən subay" (1916) musiqili komediyaları bu gün də sənət dünyamızın bəzəyidir. Zülfüqar Hacıbəyli 1935-ci ildə "Almaz" filminə musiqi yazır. Məlumdur ki, bu film kino tariximizdə ilk səsli filmdir. Bu ərəfədə yazdığı "Kölə qadınların rəqsi" adlı simfonik əsəri ona böyük şöhrət gətirir. Onun daha iki - "Nüşabə" və "Üç aşıq" operası isə tamamlanmamış qalır. Yaradıcılığa mahnı janrı ilə başlayan Zülfüqar Hacıbəyli XX əsrin 20-30-cu illərində çox məşhurlaşır. Bəstələdiyi nəğmələri - "Kəndçi qızı", " "Çoban qız", "Əsgər nəğməsi" və digər mahnıları dildə-ağızda dolaşır. Onun yaradıcılığı rəngarəngdir. Milli musiqi xəzinəmizə bəxş etdiyi töhfələr çoxdur. İstedadlı bəstəkarın əsərlərinin hər birini ayrı-ayrılıqda sənət məbədimizin qızıl kərpici hesab etmək olar.

Təəssüf hissi ilə qeyd edək ki, o dövrdə - 1937-ci il repressiyasının acı yelləri Hacıbəylilər nəslindən də yan keçmir. Bu görkəmli nəslin gözəl yadigarları doğma yurd-yuvalarından pərən-pərən düşür. Bəziləri mühacirət edir, ömürlərini qürbətdə başa vururlar. Çox keçmir ki, İkinci Dünya müharibəsi başlayır. Müharibə acı rüzgarın səmtini dəyişir. Ölkədə vətənpərvərlərə, milli təəssübkeşlərə qarşı bir az yumşalma hiss olunur. Lakin 37-ci ilin abhavası, yeni qorxusu tam çəkilməmişdi. Buna baxmayaraq, Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları qarşılaşdıqları ədalətsizliklərə, ziddiyyətli münasibətlərə mətanətlə sinə gərirlər. Böyük dözümlülük göstərərək milli musiqimizin inkişafında əllərindən gələni əsirgəmirlər. Həqiqətən də, onların yazdıqları bir çox əsərlər dövrün təqiblərinə, qadağalarına məruz qalır, illərlə arxivlərdə saxlanılır. Ancaq sonda haqq-ədalət öz yerini tutur - hər iki bəstəkar qardaşın xidmətləri qiymətləndirilir.

Zülfüqar Hacıbəyli milli musiqimizin inkişafı yolunda göstərdiyi xidmətlərə görə, 1943-cü ildə əməkdar incəsənət xadimi adına layiq görülür.Musiqili Komediya Teatrının əsasını qoyan görkəmli sənət xadimlərindən biri kimi Zülfüqar Hacıbəyli respublikanın ictimai-mədəni həyatında da fəallıq göstərib. Bu sahədə olduqca çox çalışıb. Lakin yazıb başa çatdıra bilmədiyi çoxlu sayda əsərləri qalıb. Arxivdə müxtəlif janrda yazdığı yarımçıq qalmış əsərləri var. Vaxtsız əcəl ömrünün son günlərinə kimi yaradıcılıqla məşğul olan Zülfüqar Hacıbəyli vaxtsız əcəl başladığı işləri tamamlamağa aman vermir. O, 1950-ci ilin payızında dünyasını dəyişir. Ancaq Zülfüqar Hacıbəylinin adı Azərbaycan musiqi mədəniyyəti tarixində həmişəlik qalır.

***Zümrüd BAYRAMOVA***

## Bu dəfə "sanksiyanı" Rusiya qoyur..?

Rusiya Baş Prokurorluğu Brüsseldə yerləşən Vilfrid Martens Avropa Araşdırmaları Mərkəzini arzuolunmaz təşkilat elan edib. SİA-nın əldə etdiyi məlumata görə, təşkilat Avropa İttifaqının ən böyük partiyası - Avropa Xalq Partiyası üçün analitik işlərlə məşğuldur. Baş Prokurorluq bildirir ki, 2014-cü ildən Krımın Rusiya tərəfindən ilhaqından sonra təşkilat Moskvaya siyasi, hərbi və




sanksiya təzyiqinin və Ukraynaya yardımın zəruriliyini əsaslandıraraq Avropada Rusiya haqqında mənfi imic formalaşdırır.

Nazirliyin bəyanatında deyilir ki, təşkilatın ekspertləri Rusiyada qanunvericilik və iqtisadi islahatların aparılmasının zəruriliyi ilə bağlı tezisləri irəli sürürlər. Rusiya qanunvericiliyi arzuolunmaz hesab edilən təşkilatlarla əməkdaşlığa görə vətəndaşlar üçün cinayət cəzası nəzərdə tutur.

Rusların iddiasına görə, Martens Mərkəzinin çalışdığı Avropa Xalq Partiyasına Avropanın mərkəzçi və mühafizəkar partiyaları daxildir. Yenə də ruslara görə, guya onların bir çoxu Rusiyaya qarşı ehtiyatlı mövqe tutur və Moskva ilə əməkdaşlığı tamamilə pozmamaq ideyasını dəstəkləyirlər.

Buna baxmayaraq, Avropa Parlamentindəki partiya fraksiyasının deputatlarından heç biri Rusiyanın terrorizmin himayədarı dövlət kimi tanınması ilə bağlı qətnamənin əleyhinə səs verməyib. Fraksiya həmçinin Ukraynanın müharibədən sonra mümkün qədər tez NATO-ya qəbul edilməsinin zəruriliyi ilə bağlı qətnamə qəbul edib.

***Ağasəf Babayev***

# Minaları basdırmaq müharibə cinayətidir

*Ermənistanın təqdim etdiyi xəritələr dəqiq deyil*

**Ermənistan tərəfindən Azərbaycan ərazilərində basdırılmış minalar və partlamamış hərbi sursatlar ciddi təhlükə yaratmaqda davam edir. Ermənistanın ölkəmizə qarşı törətdiyi mina terroru hərbi qulluqçularımızın və mülki şəxslərin həyatını itirməsinə və ya yaralanmasına səbəb olur. Belə ki, 2022-ci ilin avqust ayından başlayaraq Azərbaycan tərəfi Kəlbəcər və Laçın istiqamətində 3 minə yaxın mina aşkarlamışdır ki, bunların işarələnməsi birmənalı olaraq həmin sursatların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu sübut edir. Ümumilikdə, 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra 77 min 890 hektar ərazi minalardan təmizlənib, 87 min mina və partlamayan hərbi sursat aşkarlanıb.**




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi bu istiqamətdə öz fəaliyyətini davam etdirir. Həmçinin dövlətimiz minatəmizləmə sahəsində bir sıra ölkələr və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin qlobal 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi təsis olunması təşəbbüsü ilə də çıxış edib. Qoşulmama Hərəkatında da Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması ideyası istiqamətində də müəyyən işlər aparılır. Minatəmizləmə fəaliyyətini dayanıqlı və davamlı inkişafla birbaşa əlaqə kontekstində görür. Məhz buna görə də Azərbaycanda humanitar minatəmizləmə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi olaraq rəsmən elan edilir.



Minatəmizləmə Agentliyi Türkiyə Respublikası, Böyük Britaniya mütəxəssisləri, ABŞ-ın Aerokosmik Mühəndislik Korporasiyası, Cenevrə Beynəlxalq Humanitar Minatəmizləmə Mərkəzi və digər dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq edir. Həmçinin Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ölkəmizdə məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının dəstəklənməsi məqsədilə yeni layihəni icra etməyə başlayıblar. Ölkəmizin mina təhlükəsi ilə bağlı belə geniş təbliğatına baxmayaraq, minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu ölkəmizin daxili resursları hesabına aparılır.



Minatəmizləmə fəaliyyəti dünyada mövcud olan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə həyata keçirilir. Dövlət başçımız gecə-gündüz həyatını təhlükə altına ataraq çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirir, onları diqqətdən kənarda saxlamır. Belə ki, bugünlərdə Milli Məclis "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikası orden və medallarının təsis edilməsi haqqında" Qanununda dəyişiklik edib.

Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə bağlı "Azərbaycan Respublikasının orden və medalları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmiş və qəbul olunmuşdur.

Ermənistanın mina terroru iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılışında çıxış edən Prezident İlham Əliyevin toxunduğu əsas məsələlərdən biri olub. "Yaxın Şərq" xəbər agentliyinin təmsilçisi Məcid Şalkinin minaların insanların gündəlik həyatına necə təsir etməsi, həm də inkişaf layihələrinə necə mane olması ilə bağlı sualını cavablandıran dövlət başçımız deyib: "Bəli, siz ən vacib məsələyə toxundunuz. Çünki minalar müharibə bitəndən sonra üç yüzdən artıq insanın həyatına son qoyub və ya onları ağır şəkildə yaralayıbdır. Yəni, üç yüzə yaxın minanın partlaması azad olunmuş ərazilərdə baş vermişdir. Bu isə müharibə cinayətidir, minaları basdırmaq müharibə cinayətidir. Amma həmin minaların xəritəsini təqdim etməməsi Ermənistanın bizə qarşı olan terrorunun davamıdır. Biz bilirik ki, o xəritələr onlarda var, çünki minalar məhz belə basdırılır. Minaları basdıranların əlində xəritə olur, çünki onlar özləri həmin minaya düşə bilərlər. Əvvəl onlar ən yüksək səviyyədə Ermənistan baş naziri şəxsən rəsmi bizə deyirdi ki, onlarda belə bir xəritələr yoxdur. Nəhayət, boyunlarına aldılar ki, belə bir xəritələr var. Bəs, nəyə görə bizə yalan deyirdilər? Çünki istəyirdilər ki, azərbaycanlılar ölməkdə davam etsinlər, şikəst olsunlar. Onlar daha sonra bizə mina xəritələrini təqdim etdilər. Amma həmin xəritələrin dəqiqliyi heç 25 faiz deyildi. Yəni, bunun heç bir mahiyyəti yox idi. Bu, çox mənasız xəritələr idi".

Göründüyü kimi, dövlətimizin başçısı 49 ölkədən 150 qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun iştirak etdiyi forumda Ermənistanın törətdiyi ağır müharibə cinayətlərini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin minaların sayının 1 milyona yaxın olması ilə bağlı açıqlaması Ermənistanın faşist dövləti olduğunu, işğal dövründə torpaqlarımızda insanlığa sığmayan əməllər törətdiyini bir daha göstərir. Belə çıxır ki, 30 ilə yaxın davam edən işğal dövründə onların işi-gücü ancaq mina basdırmaqdan ibarət olub. Bu hərəkət, eyni zamanda, hayların azərbaycanlılara necə dərin nifrət hissi bəslədiklərinin daha bir nümunəsidir.

Ancaq haylar bilməlidirlər ki, müdrik, namuslu və zəhmətkeş Azərbaycan xalqı bu çətinliyin də öhdəsindən gələcək, tarixən cənnət adlandırılan, məhsuldar, barlı-bərəkətli Qarabağ torpağı yenə əvvəlki günlərinə qayıdacaq. Bu gözəl diyar minalardan tam təmizlənəcək, yenə də insanlar burada qurub yaradacaq. Xain hayların etdiyi pisliklər isə insanlıq adına utanc olmaqla bəşəriyyətin tarixində qara ləkə kimi qalacaq.




***Nigar Orucova***

# Forma hoqqabazlığı start götürdü

***Ötən il Nazirlər Kabineti Azərbaycanda dövlət ümumi təhsil müəssisələrində təhsilalanların geyim formalarının təsvirlərini təsdiq etdi. 2022-2023-cü tədris ilində yeni formalar məcburi xarakter daşımadığı üçün mövcud məktəblilər var olan formalarını istifadə etdilər, 1-ci sinfə başlayan və bəzi şagirdlər könüllü olaraq yeni forma geyindilər. Ötən il yeni forma alan valideynlər 4 mövcud rəngdən birini məktəb rəhbərliyinin diktəsi ilə seçmişdilər. Bu il həmin məktəblərdən bəzilərinin ötənilki formanın rənginin dəyişdiriləcəyi ilə bağlı tələbləri var.***





Hələ ötən il, dövlət televiziyasının efirində, ”Çıxışa doğru” proqramında bu məsələnin müzakirəsinə dəvət olunanda fikirlərimi canlı efirdən demişdim. Mən, yeni forma tətbiqində 3 ildən bir formanın rənginin pedaqoji şurada müzakirəyə çıxarılacağı fikrini absurd hesab edirəm. Fikrimcə, bu, valideynlərin cibinə girməkdir. 3 övladını məktəbə göndərməli olan valideyn böyük övladının kiçilən formasını kiçik övladına geyindirməklə ailə büdcəsinə qənaət etmiş olur, lakin uşaqlar arasında 3 il müddət varsa və böyüyün forması kiçiyə 3 il sonra olursa, bu, mümkün olmayacaq. Çünki hər işıq gələn yerdən pul qazanmağa çalışan, yumurtadan yun qırxan bəzi məktəb direktorları üçün bu qazanc mənbəyinə çevriləcək. Necə?

Deməli, ötən il təsdiq olunan yeni məktəbli geyimi modeli 4 rəngdə istehsal ediləcək - ağ, boz, yaşıl, mavi. Gülməli olan odur ki, hər 4 modeldə 3 növ ətək, 2 növ köynək var. Budur vahid forma? Adamın üstündə allah var, şalvar və jaket bir modeldir, yoxsa n e y l ə y ə r d i k? Hansı məktəb hansı rəngi istəsə o rəngi seçəcək, valideynlərə bildiriləcək, valideynlər də o rəng forma alacaq.







Arada biz valideynlər ”çujoypoxmel” gedirik. Əgər məktəblərin daxili nizamnaməsinə görə öz geyim formalarını seçmək ixtiyarı varsa, bu, nə vahid formabazlıqdır? Yenə də vahid forma olmayacaq axı, hər məktəbin öz geyimi olur. Böyük qızının formasını gələn il kiçik qızına geyindirmək istəyən valideyn, indidən fikrindən daşın, sənin kiçik qızın 3 ildən sonra onsuz da o geyimi geyinə bilməyəcək, çünki direktor 3 ildən sonra pedaqoji şuranı çağırıb geyimin rəngini dəyişə bilər. Buna məktəblərin daxili nizamnaməsinə görə icazə verilir və bu kimi qərarlara nazirlik müdaxilə etmir. Lakin görünən odur ki, direktorlar heç 3 il də gözləməyiblər, keçən il köhnə forma ilə yanaşı, yeni forma da tətbiq edilən bəzi məktəblərdə bu il fərqli rəngli forma tələb edilir. Əlimdə olan bəzi məlumatlara görə, keçən il yeni formanın rəngini seçib şagirdlərə aldıran məktəblər bu il həmin formanı qəbul etmirlər. Valideynlərə yeni rəng forma almağı tapşırıblar. Bununla bağlı araşdırmalarım davam edir.

Dediyim kimi, AZTV-nin efirində bu mövzuya geniş şərait yaradılmışdı, maraqlı müzakirə aparıldı. Mənim, yeni formaların 3 ildən bir müzakirə edilməsi icazəsinə iradımı eşidəndə proqramda iştirak edən nazirliyin şöbə müdiri canlı efirdə dedi ki, belə bir şey mümkün deyil, məktəblər bir forma seçəcəklərsə, şagirdlər daimi onu geyinəcəklər. İrad bildirdim ki, axı qərarda deyilir ki, məktəblərin bu ixtiyarı var, müzakirə etmək nə deməkdir? Əminsiniz dəyişməyəcəklərinə? Dedi, dəyişməzlər. Yəni, nazirlik də əmin deyil.

İl ortasında evini satıb başqa yerdən ev alan valideyn, kirayədən çıxmaq məcburiyyətində olan, başqa yerdə kirayə tutmalı olan valideyn, iş yerini dəyişdiyinə görə evini də dəyişməli olan valideyn, sənin ”gəlhagəl”in olacaq. Çünki bu kimi hallarda uşağın məktəbini də dəyişməli olacaqsan. Belə olan halda da sən iki dəfə keflənəcəksən, çünki uşağın hazırkı məktəbində geyindiyi forma yeni məktəbin forması ilə düz gəlməyəcək.

Hələ məktəblərin açılmasına 1 ay var. Belə görünür ki, bu xəmir hələ çox su aparacaq, məktəb direktorlarının yeni forma ilə bağlı tələbləri, rəng seçimi barədə şikayətlər artacaq. Həmçinin, indidən valideynlərə ultimatum verən məktəb direktorları var, qızlara vahid məktəbli formasının dəstinə daxil olan şalvarın alınmaması barədə qadağa var, bildirilib ki, geyinməyə icazə verilməyəcək. Halbuki, qızlar üçün şalvar Nazirlər Kabinetinin təsdiqlədiyi vahid formanın qış versiyasına daxildir və geyinilməsi üçün heç bir problem yoxdur. Yəni, konkret olaraq qızlar üçün qış geyim dəstində şalvar da nəzərdə tutulub. Valideynlər hüquqlarını bilsə, heç bir direktor bu cür qadağa qoya bilməz.

***Lalə Mehralı***



## ”Qisas” əməliyyatından ötən bir il

**MƏTANƏT**

Erməni adlı yaranmış elə ki, qonşuluğumuzda vaqe oldu, elə o vaxtdan da problemlərimiz başladı. Çünki bu yaranmışların xəmiri aclıq, səfalət, tamah, iştah, başqasının olanlarına göz qoymaq kimi xislətlərlə yoğurulub.

Hər dəfə yazılarımda vurğulamışam, bu dəfə də deməsəm, olmaz. Əslində ermənilərə ”qonşumuz” demək heç bir məntiqə sığmır. Çünki bizim onlar adlı qonşumuz olmayıb. Biz onları özümüzə qonşu etmişik. Belə ki, bu azğıntılara yazığımız gəlib süfrəmizin kənarında qır-qırıntı ilə bəsləyəndə gərək tarix kitablarını açıb oxuyardıq. Görərdik ki, bunlar harada sığıntı olublarsa, sonradan orada iddiaçı olublar. Beləliklə vaxtilə tarixə müraciət etməmək kimi səhvimiz ucbatından bunlara üz verdik, yazığımız gəldi və nəticədə onlar da bu gün bir qarış, sabah bir qarış torpağımıza sığındılar. Bir də gördük ki, bizə qonşu olublar. İndi tarixin hansı səhifəsini çevirsək, açıq şəkildə görərik ki, əslində, ”erməni” adlı yaranmış əzəli torpaqlarımız üzərində bizə qonşu olub.

Qonşu oldu, olmadı, başladılar torpaq iddialarına ki, budur, hələ də davam edir. 2020-ci ildə 30 il işğal altında saxladıqları torpaqlarımızı başlarına dəmir yumruq endirərək azad etdik. 30 ilin əvvəlində də, sonunda da müharibəmiz oldu bu yaranmışlarla. Minlərlə şəhid verdik, qazimiz oldu.

Lakin gəlin görək bu yaranmışlar 44 günün hər anında və sonundakı böyük məğlubiyyətləri ilə barışıb rədd olurlarmı? Əsla, bu fikirdə deyillər. Müharibədən sonra hər an əlləri təxribatda olub. Elə ötən ilin 3 avqustundakı əməlləri kimi...

Həmin gün Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan Ordusu bölmələrinə qarşı törətdiyi terror-təxribatı nəticəsində əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət etsin.

Azərbaycan Ordusunun həmin qanunsuz silahlı dəstələrə qarşı keçirdiyi ”Qisas” cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra başqa yüksəkliklər nəzarətə götürüldü. Düşmən layiqli şəkildə yerində oturduldu.

Bu barədə dövlətimizin başçısı Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində demişdir: ”Qisas” əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə də hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdən bir bunu unudur. Ona görə bu faciəvi hadisələr baş verir”.

Müharibədə Zəfər çaldığımızı, ərazi bütövlüyümüzü bərpa etdiyimizi xatırladaraq dövlətimizin başçısı ”Nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha sərt olacaq, daha da peşman olacaqlar, daha gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq”,- deyə bildirdi.

Dövlətimizin başçısı hər dəfə bizim istəyimizin erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etmələri olduğunu vurğulayır və qeyd edir ki, bu, Ermənistanın öhdəliyidir və 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib.

Beləliklə, ”Qisas” əməliyyatını xatırlayaraq belə bir qənaətə gəlirik ki, qonşu düşmənin hər bir əməlinin qarşısı belə ”Qisas”larla alınacaq. Bu, dünən də belə olub, bu gün də belədir, sabah da belə olacaq. Odur ki, çəkilib öz torpağında (hansı ki, o da bizimdir) oturmalıdır.

# Yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə...







**Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 3-də hökumətin iclasında çıxışı zamanı növbəti dəfə "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti, eləcə də ərazi bütövlüyü və delimitasiya məsələsində beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndirmək cəhdləri etməsi Ermənistan tərəfinin iki ölkə arasında normallaşma prosesinə müsbət töhfə vermək əvəzinə, vəziyyəti gərginləşdirmək niyyətinin göstəricisidir.**

Bu sözlər Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın hökumətin iclasında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

Bildirilib ki, Ermənistan tərəfinin iyunun 15-də Azərbaycan tərəfindən tikilmiş Həkəri körpüsündə, Azərbaycanın suveren ərazisində Azərbaycan bayrağını ucaldan sərhədçilərimizə atəş açmasının baş nazir N.Paşinyanın Azərbaycan tərəfindən təxribat kimi təqdim etməsi bir daha Ermənistanın həyata keçirdiyi təxribatlara bəraət qazandırdığını nümayiş etdirir.

Qeyd edilib ki, Azərbaycanın Laçın yolunu bağladığı iddiasının heç bir əsasının olmadığı məlumdur. Azərbaycan Ermənistanın "humanitar yük" adı altında əvvəllər hərbi texnika və bir sıra digər qanunsuz daşınmalara cəlb olunmuş nəqliyyat vasitələri ilə Azərbaycana ölkəmizin icazəsi olmadan yüklərin daşınmasının qəbuledilməzliyini dəfələrlə diqqətə çatdırıb. "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti ölkəmiz tərəfindən tənzimlənir və Ermənistanın ölkəmizin ərazisində son üç ilə yaxın dövrdə qanunsuz fəaliyyətlər üçün sui-istifadəni davam etdirdiyi Laçın yoluna girişə və çıxışa nəzarət üçün olduqca böyük əhəmiyyət daşıyır. Beynəlxalq Ədalət Məhkəməsinin də 6 iyul tarixli qərarında bu sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı müraciəti yekdilliklə rədd etməsi bir daha Ermənistan tərəfinin iddialarının əsassız olduğunu sübut edib.

Ötən il oktyabrın 6-da Praqa görüşündə təsdiq olunduğu kimi, 1991-ci il Alma-Ata Bəyannaməsinin Azərbaycan ilə Ermənistan arasında sərhədləri müəyyənləşdirdiyini, Alma-Ata Bəyannaməsinin delimitasiya üçün əsas kimi qəbul olunduğunu bəyan edən baş nazir Nikol Paşinyanın, eyni zamanda, Azərbaycana qarşı ərazi iddialarını davam etdirməsi, Azərbaycan ərazisində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma rejimi təbliğ etməsi Ermənistanın ərazi bütövlüyü və suverenliyə, eləcə də delimitasiya prosesinə sadiq olmadığını nümayiş etdirib.

Vurğulanıb ki, insanlıq əleyhinə cinayət törətmiş şəxs olan Vaqif Xaçaturyanın həbsi ilə bağlı ictimaiyyəti yanlış yönləndirən Ermənistan tərəfinə bir daha xatırlatmaq istərdik ki, beynəlxalq humanitar hüquqda müharibə cinayətkarlarına qarşı müvafiq tədbirlər görülməsinə mane olan heç bir məhdudiyyət yoxdur. Bu şəxsin həbsi Azərbaycan qanunvericiliyi və beynəlxalq hüquq çərçivəsində həyata keçirilib. Ermənistan tərəfi 30 ilə yaxın işğal dövründə azərbaycanlılara qarşı soyqırımı daxil insanlıq əleyhinə cinayətlər və kütləvi qırğınlar törədilməsinə görə məsuliyyət daşıyan şəxsləri müdafiə etmək və onların əməllərini ört-basdır etmək əvəzinə, onların cinayət məsuliyyətinə cəlb edilməsi işinə dəstək verməlidir.

Diqqətə çatdırılıb ki, Ermənistan tərəfi həqiqətən də bölgədə sülh və sabitlikdə maraqlıdırsa, o cümlədən Azərbaycanın ərazi bütövlüyü və suverenliyini yalnız sözdə deyil, əməldə də dəstəkləyirsə, bu kimi təhrikçi addımlardan çəkinməli, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün təklif etdiyi Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadəni dəstəkləməlidir. Ermənistan tərəfi, həmçinin Azərbaycanın erməni sakinlərin reinteqrasiyası üzrə səylərinə mane-çilik törətməməlidir.

# Şəhidlər ölməz!

## Ağstafada Vətən müharibəsi şəhidi Əhmədov Mahmud Fərman oğlunun doğum günü münasibətilə xatirəsi anılıb

**Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev və təşkilatın əməkdaşları, Ağstafa Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, şəhid ailələri, partiya fəalları və rayon ictimaiyyətinin nümayəndələri Ağstafa şəhər Şəhidlər xiyabanında şəhidin məzarını ziyarət edib, məzarı önünə gül dəstələri düzüb, əziz xatirəsini ehtiramla anıblar.**

Tədbir çərçivəsində şəhidimizlə eyni məzarlıqda uyuyan Vətən müharibəsi şəhidləri Abdullayev Nihad Adil oğlunun, Həsənov Elnur Elman oğlunun, İbrahimov Elçin Rövşən oğlunun, Mustafayev Ramiz Bağman oğlunun, Orucov Xudayət Vilayət oğlunun, Əliyev Tahir Çingiz oğlunun və Həsənov Elşad Qabil oğlunun da məzarları ziyarət olunub, məzarları önünə gül dəstələri düzülərək əziz xatirələri yad edilib.

Qeyd edək ki, Mahmud Əhmədov 2020-ci il noyabr ayının 18-də Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən o, ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.





Elçin Bayramlı

# Teleterror əməliyyatı

***Bu gün Azərbaycan teleməkanında yaranmış vəziyyətin acınacaqlı olduğu faktı açıq ortadadır. Televiziyanın əsas funksiyalarından getdikcə uzaqlaşmaqda olan kommersiya telekanalları bayağı və şit "xörəkləri", şit və yalançı reklamları, əxlaqsızlığı təbliğ edən "sabun operaları"- teleserialları, adi əxlaq normaların pozulduğu şouları, restoran mətbəxinə döndərilmiş verilişləri və digər səviyyəsiz proqramları ilə tamaşaçını əsəb xəstəliyinə düçar etməyi qarşısına məqsəd qoymuş kimi görünür.***

Diletantların hakim olduğu teleradio efirində proqram şəbəkəsi elə tərtib olunur ki, sanki, tamaşaçı auditoriyası tamamilə meşşan, kütbeyin, qeybətdən və "sabun operaları"ndan ötrü sinov gedən adamlardan ibarətdir.

Əksər tamaşaçılar isə bunun heç də belə olmadığını qeyri-efir vasitəsilə əyani sürətlə nümayiş etdiriblər. Artıq, tamaşaçıların çoxu Rusiya və Türkiyə kanallarını izləyir. Xüsusilə də, intellektual auditoriya yerli tele və radio kanallara baxmır. Ucuz şouları, keyfiyyətsiz proqramları, bərbad tərcümə olunmuş filmləri, savadsızlığı efirdən aşkar bilinən aparıcıların verilişlərinə niyə baxsınlar ki?

Beləliklə, bizim tamaşaçı kontingenti yad ölkələrin ideoloji teleməkəzlərinə təslim edilib və mədəni assimilyasiyaya məruz qalır. Vəziyyət o həddə gəlib çatıb ki, normal danışıq və elementar davranış qaydalarına yiyələnməyə "vaxt tapmayan" adamlar efirdən xalqa ağıl öyrədir. Milli-mənəvi dəyərləri və "lazımsız" əxlaq kriteriyalarını lağa qoyanlar cəmiyyətə nümunə göstərilir.

Bu telekanallar cəmiyyətə bütün mənfilikləri müsbət kimi təqdim etməklə nəyə nail olmaq istəyir- şəxsən mənə aydın deyil. Gizli reklamların sayı-hesabı bilinmir, bəzilərinin dediyi kimi reklamların arasında hərdən veriliş də verirlər. Qanunları pozmağın üstünlüyü, zərərli vərdişlərin lazımlılığı, ailədaxili münaqişələrin, boşanmaların təbliği, qətl və zorlama kimi ağır cinayətlərin bütün detalları ilə nümayiş və təsvir edilməsi nəyə xidmət edir, maraqlıdır.

Maraqlı məsələlərdən biri də ondan ibarətdir ki, hansısa fırıldaqçı qruplaşmanın üzvləri bu televiziya menecerlərinin ağlına yerləşdirib ki, guya tamaşaçıların çoxu şou verilişlərə baxır. Hələ üstəlik, özlərini reytinq agentliyi adlandıran bəzi fırıldaqçı işbazlar tərəfindən reytinq cədvəlləri də düzəldilir. Bu reytinq cədvəllərinin yalan-palandan başqa bir şey olmadığı normal adam üçün aydın məsələdir.

Beləliklə, özəl televiziyalar cəmiyyətin mənəvi tələbatını və ictimai maraqları bir kənara ataraq, bütün qanun, qayda və normaları kobud surətdə pozurlar. Bəs tamaşaçıya hörmətsizlik tendensiyası nədən qaynaqlanır? Səviyyəsiz proqram siyasətinin səbəbləri nədədir?

Birincisi odur ki, şit, mənasız hay-küy, qeybət və tərbiyəsizliklə müşayiət olunan şoularda reklamla külli miqdarda pul qazanırlar. Belə verilişlər əsasən bəzi aşağı təhsili ev xanımlarına və yelbeyin gənclər kateqoriyasına ünvanlanıb.

İkincisi ondan ibarətdir ki, ciddi elmi-intellektual, sosial-iqtisadi, hərbi-vətənpərvərlik və digər verilişlərdən fərqli olaraq bu verilişlər (şou, əyləncə) nə çoxlu maliyyə, nə də peşəkar mütəxəssislər tələb etmir.

Üçüncüsü isə, peşəkarlardan və savadlı kadrlardan fərqli olaraq diletantlar ucuz işçi qüvvəsidirlər və onları "beş-üç" manat maaş verməklə istismar etmək asandır. Savadsız müğənnilərə isə nəinki maaş vermək lazım gəlmir, əksinə onlar özləri pul ödəyirlər veriliş açmaq üçün.

Beləliklə, TV-lərə doluşan savadsız, zövqsüz, dünyagörüşü olmayan adamlar tamaşaçıları öz səviyyələrinə salmağa çalışırlar. Bunu çox vaxt qəsdən etmirlər, sadəcə peşəkarlıq və bilik səviyyəsi oradək çatır. Amma ədalət naminə deyək ki, bu prosesi bilərəkdən və müəyyən dairələrdən təlimat alaraq yerinə yetirən "peşəkarlar" da var.

Bu məsələlərlə bağlı dəfələrlə ən yüksək səviyyələrdə ciddi iradlar tutulsa da, televiziyalar "içlərinə bir şey qoymayıblar". Ölkə prezidenti, yüksək rütbəli dövlət məmurları, media ekspertləri, nüfuzlu ictimai xadimlər dəfələrlə yerli TV-lərdəki proqram və kadr siyasətini sərt tənqid ediblər.

Bu proses 30 ilə yaxındır davam edir, aidiyyatı orqanlar hərdən tövsiyyə filan verir, amma vecinə alan kimdir? TV-lər ciddi və səviyyəli proqramlar yaratmaq əvəzinə getdikcə biabırçı verilişləri artırırlar. Cəmiyyətə qarşı teleterror davam edir...

# Seçim Ermənistanındır: Sülh, yoxsa "Dəmir yumruq"?

44 günlük Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində hərbi qələbə qazanaraq bu ölkəni kapitulyasiya aktını imzalamağa məcbur etməsindən sonra belə anlaşılırdı ki, Paşinyan rejimi 10 noyabr razılaşmasının bütün şərtlərini yerinə yetirəcək. Lakin erməni hiyləgərliyi və məkri bu dəfə də özünü göstərdi. Paşinyan rejimi bir müddət yaralarının aradan qaldırılmasına vaxt sərf edib, qismən sakitləşdikdən sonra telə çökdüyü dizləri üstündə revanşist açıqlamalarla çıxış etməyə başladı. Lakin ardıcıl olaraq dəmir yumruğun, Fərrux kəndində, Daşbaşı yüksəkliyində, Qaragöl istiqamətində ermənilərin başına endirilməsindən və nəhayət, 2023-cü il aprelin 23-də Laçın sərhəd keçid məntəqəsinin qurulması ilə ermənilər və onların havadarları geri çəkilməyə və Azərbaycanın şərtlərini qəbul etməyə başladılar. Məhz bundan sonra Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın Qarabağ və anklavlar daxil olmaqla ərazi bütövlüyünü tanıdığını bəyan etdi. Eyni zamanda, Paşinyan Azərbaycanla sülh razılaşmasının əldə olunması üçün səylərini davam etdirəcəyini bəyan etdi. Lakin ara-sıra erməni məkri ortada görünməkdədir.



## "Bu, onların seçimidir"

Fransızın və rusun əlinə oynamaqla Ermənistan Azərbaycanın sərhədləri yaxınlığında təxribatlar törədir. Xüsusilə də, Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyasına mane olamağa çalışır. Son günlər Laçın sərhəd keçid məntəqəsi yaxınlığında Qarabağdakı ermənilərə "humanitar yardım" adı altında Azərbaycanla razılaşdırmadan yüklərin daşınmasına cəhd etməsi erməni revanşistlərinin növbəti təxribatı hesab olunur. Lakin bu təxribatın iflasa uğrayacağı şübhəsidir. Azərbaycan dəfələrlə bəyan edib ki, Rusiya sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolu istifadə oluna bilər. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun sözlərinə görə, yolun texniki və təbii göstəriciləri, xüsusilə, işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri tamamilə başadüşülən deyil: "Burada məqsəd siyasi şou və siyasi möhtəkirlikdən başqa bir şey deyil". Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Aİ ölkələrinin, həmçinin Türkiyə, ABŞ və İsveçrə səfirlərinin iştirakı ilə keçirilən görüşdən sonra qeyd edib ki, teatral səhnələr və yük maşınlarını nümayiş xətrinə Laçın yoxlanış məntəqəsinə gətirməkdənsə, Ermənistan Azərbaycana qarşı ərazi iddialarına son verməli, öz qüvvələrinin elementlərini Azərbaycanın Qarabağ regionundan çəkməli və qanunsuz marionet rejimin maliyyələşdirməsini dayandırmalıdır. Prezidentin köməkçisi onu da qeyd edib ki, beynəlxalq ictimaiyyət Ağdam-Xankəndi yolunun istifadəsi və Qarabağın erməni sakinlərinin Azərbaycana reinteqrasiyası ilə bağlı aydın siqnal göndərməlidir. Hikmət Hacıyevin fikrincə, Ermənistanın Ağdam yolundan imtina edərək, yalnız Laçın yolundan istifadədə israr etməsi və məsələni siyasiləşdirməsi qəbuledilməzdir.

Son günlərin hadisələri onu deməyə əsas verir ki, separatçı rejimin təzyiq və təhdidlərinə baxmayaq Qarabağda yaşayan ermənilər Azərbaycan cəmiyyətinə inteqrasiya olunmağa can atırlar. Dəfələrlə Azərbaycan dövlətinin rəhbərliyi də ermənilərin Azərbaycan vətəndaşı olduqlarını və bir sıra şərtləri qəbul edəcəkləri təqdirdə, Qarabağda qalıb yaşaya biləcəklərini qeyd ediblər.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, ermənilər bizim dediklərimizi edərlərsə, onların təhlükəsizliyi, normal yaşayışı üçün zəmanət verilir. İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada "Euronews" televiziyasına müsahibəsində bildirib ki, Qarabağda, hazırda müvəqqəti olaraq rusiyalı sülhməramlıların nəzarəti altında olan ərazidə yaşayan insanlar Azərbaycanda yaşayırlar və onlar onsuz da Azərbaycanın çox zəngin olduğu digər milli azlıqları kimi Azərbaycan vətəndaşları olaraq yaşayacaqlarına və ya Azərbaycanı tərk edəcəklərinə dair seçim etməlidirlər: "Bu, onların seçimidir. Bu, bizim onları buranı tərk etməsini istədiyimizə və ya Ermənistanın bizi etnik təmizləmə siyasəti aparmaqda günahlandırdığına görə etmirik. Biz onlara seçim hüququ veririk. Çünki onlar heç bir hüquqi icazə olmadan ya Ermənistan vətəndaşları olaraq, ya da heç kim tərəfindən tanınmayan dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın vətəndaşları olaraq bizim ərazidə necə yaşaya bilərlər? Hesab edirəm ki, bu, legitim yanaşmadır. Bu yanaşma beynəlxalq təcrübəyə uyğundur. Bu yanaşma separatizmə qarşı mübarizə aparan bir çox Avropa ölkələrində gördüyümüz təcrübəyə uyğundur. İndi biz separatizmə qarşı mübarizə apmarmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Bəs bizə gəldikdə nəyə görə bizim separatizmə qarşı mübarizəmizə fərqli yanaşma sərgilənir? Nəyə görə Gürcüstanın separatçı regionlarına qarşı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual atlına alınır? Nə üçün İspaniya Kataloniyaya referendum keçirməyə icazə vermir, baxmayaraq ki, onların sayı 5, yaxud 6 milyon nəfərdir və yaxınlıqda öz dövləti olan ermənilərdən fərqli olaraq, onların öz dövləti yoxdur. Nə üçün biz separatizmə dözməliyik? Biz bunu etməyəcəyik".





## Nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir?

Azərbaycan Prezidenti İlham Əliyev ermənilərin Laçın-Xankəndi yolu ətrafında təxribatlar törətmələri cəhdində BQXK-nin də alət olmasından təəssüfləndiyini qeyd edib: "Bəli, lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik. Çünki əfsuslar olsun ki, bu günə kimi onların Qarabağdakı ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir. Bu da yolverilməzdir. Çünki bütün dünya Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyır. Hətta Ermənistanın baş naziri dəfələrlə "Qarabağ Azərbaycandır" söyləyib. Bəs nəyə görə Qırmızı Xaç Komitəsinin Xankəndidəki ofisi Bakı ofisinə yox, İrəvandakı ofisə tabedir? Bu, bizim legitim tələbimizdir." BQXK-nin tələb elədiyi ədalət belədirsə, demək o, heç ədalət deyil. Azərbaycanın suverenliyinə qarşı çıxan hər bir təşkilatın fəaliyyəti birmənalı şəkildə qadağan edilməlidir. Nə ermənilər seçilmiş xalq deyil, nə də onların tələbi heç bir normaya sığmır. Bizim də haqlı sualımız var ki, bu terrorçu separatist tör-töküntülərə xüsusi məhəbbət haradan və nədən qaynaqlanır? 30 il ərzində Azərbaycan xalqına əzab verən ermənilərə niyə bu qədər sevgi bəslənilir?

"Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı"-deyən Müzəffər Ali Baş Komandan bildirib ki, otuzillik işğaldan əziyyət çəkmiş ölkəmizin işğal altında olan əraziləri tamamilə məhv edilmişdir: "Şuşada qeyri-qanuni məskunlaşmalar olduğu üçün şəhər tamamilə dağıdılmamışdır. Onlar Orta Şərqdən olan erməniləri burada məskunlaşdırmaq istəyirdilər və burada bir neçə min erməni yaşayırdı. Məhz buna görə heç də bütün şəhərlər dağıdılmamışdır. Lakin Füzuli tamamilə yerlə-yeksan edilmişdir, Ağdamda da vəziyyət eynidir. Deməli olar ki, bir milyon azərbaycanlı evindən məhrum olmuşdur. Bütün bu acıya baxmayaraq, biz qisas almadıq. Mən dedim ki, biz qisası döyüş meydanında alacağıq, lakin Ermənistan müharibənin ilk günündən mənim tələb etdiyim bütün ərazilərdən geri çəkiləcəyi tarixləri bizə təqdim edən kimi biz dayandıq və sonra da sülh haqqında danışıqlara başladıq. İndi sülh bizim gündəliyimizdədir. Ermənistan sülh istəyərsə, biz ona nail olacağıq. Çünki bizim Ermənistana qarşı hər hansı bir ərazi iddialarımız yoxdur. Biz onların da Azərbaycana qarşı ərazi iddialarının olmamasını istəyirik. Kifayət qədər aydın və qətiyyətli mövqedir. Bizim separatizmə dözmək limitimiz bitib. Ermənilərin də əslində taqəti yoxdur. Lakin nə yazıq ki, onlar başqalarının əlində oyuncaqdır. Bu da həm erməni xalqına. həm də regionda sülhə ciddi təhlükədir".



Görünən ondan ibarətdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin mesajı və mövcud reallıqlar bəzi erməniləri ayıldıb. Onlar Azərbaycan vətəndaşlığını qəbul etmək istəyi ilə çıxış etməyə başlayıblar. Bu da ondan irəli gəlir ki, ermənilər terrorçu ermənilərdən onlara rəhbər olmayacağını anlayırlar. Revanşist çıxışlar edən Koçaryan, Sarkisyan, Vardanyan, Artunyan və digər separatçılar öz maraqlarını düşünür və bu istiqamətdə hərəkət edirlər. Yaxın günlərdə Qarabağdakı ermənilərlə Azərbaycan nümayəndələrinin Yevlax şəhərində görüşünün keçiriləcəyi barədə məlumatlar yayılıb. Düzdür yayılan xəbərə görə, Azərbaycan nümayədələri görüşdən imtina edirlər. Bu da ondan irəli gəlir ki, əvvəllər görüş təklifini ermənilər pozmuşdular. İndi isə onlara yerləri göstərilir. Əgər görüş baş tutsa, çox ermənilər reinteqrasiyaya hazır olduqlarını bəyan edəcəklər. Bununla da problem hesab olunan məsələnin həlli istiqamətində irəliyə doğru növbəti addım atılacaq.

İ.ƏLİYEV

# Andrey Çernışov: Azərbaycanı çox sevirəm! Günəşli, açıq və istedadlı ölkədir





İyulun sonunda Rusiyanın Mədəniyyət telekanalında "Mayakovski. İki gün" adlı serialın nümayişinə başlanıb. Şairin 130 illik yubileyinə həsr olunmuş serialda baş rolun ifaçısı, rusiyalı aktyor Andrey Çernışov "Moskva-Baku" portalına müsahibəsində Mayakovski yaradıcılığına necə münasibət göstərdiyini, rola necə hazırlaşdığını, qafqazlı dostları haqqında danışıb, Bakı ilə bağlı ən təsirli xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Andrey Vladimiroviç, Mayakovskinin yaradıcılığına münasibətiniz necədir və rola necə hazırlaşdınız?***

- Mayakovski, bir çoxları kimi mənim sevimli şairlərimdən biridir. Bu, orijinal və inanılmaz dərəcədə emosional dünyagörüşü və çatdırılma üsulu, poetik obrazları olan tamamilə parlaq bir müəllifdir. Mən rola, əlbəttə ki, diqqətlə hazırlaşdım, çünki tapşırıq inanılmaz dərəcədə ciddidir. Mən çox gözəl başa düşdüm ki, Mayakovski kimi böyük insanı, dahi şəxsiyyəti oynamaq sadə bir insan üçün tamamilə qeyri-mümkündür. Ona görə də bunun mümkün olmadığını anlayaraq buna can atmadım. Amma onun şəxsiyyətinin bəzi xüsusiyyətlərini qeyd etmək istədim. Və öyrənmə prosesində mən çoxlu tarixi araşdırmalar aparmalı oldum, o dövrlə bağlı, onun insanlarla münasibəti haqqında. Mayakovskinin bir insan kimi rəğbət bəslənən şəxsiyyət olması və müəyyən mənada hətta mənim üçün yaxın və başa düşülən olması məni çox sevindirdi. Bu, çox səmimi, açıq və müdafiəsiz bir insan olmasının ən vacib xüsusiyyətidir. Bütün çəkisinə, qüdrətinə baxmayaraq, əslində o, məhz belədir. Bir çox müasirləri və dostları onun müəyyən dərəcədə hətta uşaq kimi olduğunu belə xarakterizə edirdilər. Təbii ki, bu, çox vaxt aparan, bahalı iş idi, çünki məsuliyyət böyükdür, amma yenə də çox maraqlıdır.

***- Yeri gəlmişkən, bu il sizin özünüz də yubileyiniz olub və portalımız bütün təbriklərə ürəkdən qoşulur. Necə qeyd olundu? 50 yaşınıza qədər 100-dən çox rol oynamısınız. Bu gün bəlkə də arzuladığınız, amma hələ yerinə yetirə bilmədiyiniz bir rolunuz var...***

- Təbrikləriniz üçün təşəkkür edirəm. Düşündüm ki, ailəmlə, həyat yoldaşımla necə qeyd edim, çünki, mən özümü, varlığımı bu qədər ciddi qeyd etməkdə maraqlı deyiləm, amma deyəsən, bu belə qəbul olunub. Maşa (Mariya Dobrjinskaya- Andrey Çernışovun həyat yoldaşı- red.) və mən bir qərar verdik və sadəcə isti iqlimi olan bir yerə getdik. Yenə də ən yaxşı hədiyyə mehribanlıq, yaxın insanlar və istirahətdir. Amma bundan sonra biz də Moskvada dostlarla görüşüb bayram etdik.

Təbii ki, ifa etdiyim böyük rollar da az deyil, amma dünya repertuarında ifa etmək istədiyim rollar çoxdur, Amma düzünü desəm, bir çox aktyorların arzuladığı kimi, bir növ xəyal roluna sahib olmaq mənim üçün yoxdur. Mənə maraqlı material təklif edəndə çox sevinirəm, xüsusən də "Mayakovski. İki gün" kimi olanda. Və yəqin ki, oxşar sürprizlər gözləyirəm. Axı dünyada çox gözəl rollar var.

***- Azərbaycanlı rejissor Fərid Qumbətovun "Qafqaz" filmində də baş rolda çəkilmisiniz. Ötən dəfə portalımıza demişdiniz ki, çəkilişlər əsasən Azərbaycandadır. Qafqazın daha hansı şəhərlərində olmusunuz?***

- Mən Qafqazın bir çox yerində olmuşam, xüsusən də Azərbaycanın özünə və Bakıya gəlincə, bu mənim sevimli şəhərlərimdən biridir, tamamilə səmimiyəm. İlk gəlişimdə Bakının insanları və ab-havası məni o qədər rahat etdi ki, həqiqətən də bu şəhərə aşiq oldum və bunu bir neçə dəfə etiraf etdim. 2003-cü ildə çəkilən "Qafqaz" filmindən Elçin Əzizov dostluq etdim və o vaxtdan ailəvi dost olduq. O, gözəl opera müğənnisidir, Azərbaycanın, ümumiyyətlə, bütün opera sənətinin fəxridir. Biz hələ də nəinki əlaqə saxlayırıq, həm də yaxın dostuq. Əgər biz Moskvada görüşsək, mən ancaq yeri gəlmişkən, mənim də pərəstiş etdiyim Azərbaycan mətbəxi olan bir yer tələb edirəm. Və təbii ki, qastrol səfərimlə Bakıya gəlməyi bacardığım zaman- təəssüf ki, uzun müddətdir ki, bu mümkün olmayıb,- məmnuniyyətlə görüşürük. Ümid edirəm ki, yaxın vaxtlarda bu, nəticə verəcək, əks halda hər il Elçin Əzizov bizi dəvət edir və biz Bakıya səfər etməyi planlaşdırırıq. Yeri gəlmişkən, bu yaxınlarda Maşa ilə birlikdə onunla və həyat yoldaşı ilə görüşdük və gələ bilməyən və Bakıda qalan oğulları Cəmillə videobağlantı vasitəsilə danışdıq. Eynilə, biz müzakirə edirdik ki, avqustda Bakıya səfər etmək olar. Ümumiyyətlə, mən həmişə Qafqazın hər yerində məmnuniyyətlə görünürəm, dostlar da Kabardin-Balkarda, "Çeçenistanda itmişlər" adlı beynəlxalq layihənin çəkilişlərinin aparıldığı Nalçikdə peyda oldular. Film ingilis dilində idi, xarici aktyorlarda da iştirak edirdi. 2000-ci illərin əvvəllərində çəkilib və o vaxtdan Nalçikdən olan həmkarlarımla əlaqə saxlayıram. Mənim üçün Qafqaz rəngarəng və temperamentliliyin birləşməsidir. Və həmişə bu qonaqpərvər bölgəyə qayıtmaq istəyirsən.

***- Azərbaycanla bağlı ən parlaq xatirəniz hansıdır?***

- Təbii ki, çoxlu xatirələr var, amma ilk ağlıma gələn uzun müddət Azərbaycanda çəkiliş apardığım, sonra Lenkomda işlədiyim, teatr yataqxanasında yaşadığım vaxtlar oldu. Bir kommunal mənzil və aktyorların olduğu bir neçə otaq var idi və onların arasında mən də belə kasıb, gənc rəssam idim. Mən onların qonaqpərvərliyini hərarətlə xatırlayıram. Hər dəfə gəlib-gedəndə mənə bir banka qara kürü verirdilər. Soyuducumda heç nə yox idi, boş rəflər, yalnız qara kürü dayanmışdı. Güldüm və dedim: "Görün kasıb sənətkarlar necə yaşayır". Mən Azərbaycanı çox sevirəm - günəşli, açıq və çox istedadlı ölkədir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## "Azərbaycan ordusu müharibə dövründə olduğundan daha güclüdür"

*MÜNASİBƏT*



"Paşinyan "Euronews" telekanalına müsahibəsində Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması üçün bütün mümkün vasitələrdən istifadə edəcəyini bildirsə də, reallıqda o öz hərəkətləri ilə sülhdən uzaq olduğunu nümayiş etdirir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib. Onun sözlərinə görə, sülh müqaviləsinin imzalanması üçün Paşinyana, sadəcə, şifahi şəkildə bildirdiyi parametrləri ilə Azərbaycanın ərazi bütövlüyünü rəsmi sənəddə imzası ilə təsdiq etmək və ölkəmizin daxili işlərinə müdaxilə hesab olunan hərəkətlərdən uzaq dayanmaq lazımdır: "Paşinyan beynəlxalq aktorlarla görüşlərdə özünü çox yazıq və məsuliyyətli kimi aparır. Amma danışıqlar prosesi başa çatmamış təxribatlar törədilməsinə tapşırıq verir. Bu, Paşinyanın dedikləri ilə əməlləri bir-birinə uyğun gəlmədiyini göstərir. Dövlət rəhbərləri dediyi sözün arxasında dayanırlar. Ona görə də, xalq öz taleyini və ölkənin gələcəyini dövlət başçısına etibar edir. Paşinyanda isə elə hərəkətlər heç vaxt müşahidə olunmayıb. O, həmişə bu gün deyilən sözün sabah əksini edir. Ona görə də, Paşinyanın sözlərinə nə inam, nə də etibar var. Onu da qeyd etmək istəyirəm ki, sülhün alternativi yoxdur. Çünki sülh olmadan müharibə aparmağa Ermənistanın nə gücü var, nə də cəsarəti. Bu gün Ermənistana dayaq dayananlar da heç vaxt Ermənistana görə Azərbaycanla müharibə etməz. Hamı Azərbaycanın ordusunun gücünü döyüş meydanında görüb. Bu gün Azərbaycan ordusu müharibə dövründə olduğundan daha güclüdür. Ermənistan rəhbərliyi özünü və xalqını aldatmaq əvəzinə Azərbaycanla münasibətləri normallaşdırsa, bu, ilk növbədə, özləri üçün yaxşıdır".

***GÜLYANƏ***

## Gərginliyi artırmaq cəhdi...

Ermənistan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində təxribatları davam etdirir. Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhaliyə Azərbaycan tərəfi ilə razılaşdırmadan "humanitar yük" daşıyan avtomobil karvanı iyulun 26-dan etibarən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfindəki aşırımda dayanıb.

Avqustun 2-də Azərbaycanın Qarabağ iqtisadi rayonuna hərəkət etmək istəyən daha iki yük avtomobili digər yük avtomobillərinin dayandığı əraziyə gəlib. Bununla da avtomobil karvanında olan nəqliyyat vasitələrinin sayı 21-ə çatıb.

Bu, Ermənistanın məkrli niyyətini və təxribatçılıq əməllərini davam etdirdiyini, gərginliyi artırmağa çalışdığını bir daha göstərir. Azərbaycanın ölkəmizlə razılaşdırmadan heç bir yükün suveren ərazilərimizə keçirilməsinə icazə verməcəyini, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərimizə malların daşınması üçün Ağdam-Xankəndi yolundan istifadə oluna biləcəyini dəfələrlə bəyan etməsinə baxmayaraq, ermənilərin "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən istifadə etməkdə israrlı olması ictimai rəyi çaşdırmaq üçün növbəti cəhdidir. Ermənistanın sərhəddə yol verdiyi əməllər birbaşa siyasi şou, manipulyasiya və təxribat xarakteri daşıyır.

Qeyd edək ki, aprelin 23-dən - "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi qurulduğu vaxtdan indiyədək Qarabağın 2 mindən artıq sakininin Ermənistana asan şəkildə gediş-gəlişi təmin olunub.

SON SƏHİFƏ

SƏS

4 avqust
2023-cü il

# Ana südü haqqında 10 yalan

***BMT-nin Uşaq Fondu (UNİCEF) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər il ölkəmizdə avqust ayının 1-dən 7-dək "Ümumdünya ana südü ilə qidalandırma həftəsi" keçirilir. Bu tarix ana südü ilə qidalandırmanın qorunması, təşviqi və dəstəklənməsi üçün qeyd edilir. Bu səbəbdən də beynəlxalq dərəcəli ana südü və əmizdirmə məsləhətçisi Səltənət Zülfüqarovanın ana südü haqqında danışılan 10 yalan haqqında fikirlərini təqdim edirik.***



### 1-ci yalan - "Süd gələnə kimi süni qida vermək lazımdır"

Çox geniş yayılmış səhv məlumatlardan biri doğuşdan sonrakı 3-4 gün müddətində ananın döşlərində körpəni qidalandırmaq üçün lazımi miqdarda südün olmamasıdır. Həqiqətən də, bu dövrdə ananın döşlərində süd olmur. Lakin tərkibində ana südündən qat-qat zəngin zülal olan ağuz südü olur. "Childbirth" Beynəlxalq Təlim Təşkilatının təqdim etdiyi məlumatlara görə, ana südünün 100 ml-də 0.9 qr zülal olduğu halda, eyni miqdarda ağuz südünün tərkibindəki zülalalın miqdarı 2.3 qr təşkil edir. Ağuz südü verməklə körpənizin bütün qida ehtiyaclarını ödəmiş olacaqsınız və süni qidaya heç bir ehtiyac qalmayacaq.

### 2-ci yalan - "Ana südü ilə bərabər körpəyə əlavə maye və qida lazımdır"

Ana südü məişət dili ilə desək, həm yemək, həm də içməkdir. Körpənin ilk 6 ayında ana südündən başqa heç bir əlavəyə ehtiyacı yoxdur. Bunu eşidən nənələr başını tutub, "Siz uşağa şirin çay vermirsiniz?" deyəcəklər. Mütəxəssislər hətta qızmar yayın istisində belə ana südü ilə qidalanan körpəyə əlavə mayenin verilməsinin lazımsız olduğunu qeyd edir. İsti iqlim ölkələrində körpələrin, sadəcə olaraq, daha tez-tez əmizdirilməsini tövsiyə edirlər.

Amerika Pediatrlar Akademiyası və Dünya Səhiyyə Təşkilatı ümumiyyətlə, 6 ayına qədər körpəyə ana südündən başqa heç bir qidanın (su, meyvə, tərəvəz, şirə, sıyıq və s.) verilməsini məsləhət görmür. Mütəxəssislər bildirirlər ki, bu hal gələcəkdə körpənin sağlamlığında fəsadlara səbəb ola bilər.

### 3-cü yalan - "Ana südü dəyişmir"

Ananın südü körpənin ehtiyaclarından asılı olaraq günü-gündən həm miqdar, həm də keyfiyyət baxımından dəyişmək qabiliyyətinə malikdir. Ananın və ya körpənin xəstə olması südün tərkibində xəstəliklə mübarizə apara bilən əlavə anticisimlərin ifraz olunmasına səbəb olur. Ananın qidalandığı yeməklərin dadı südə tam verir. Cill Rapli və Treysi Mörkit "Baby-led weaning" adlı kitabında hesab edirlər ki, məhz bu səbəbdən ana südü ilə qidalanan körpələr daha rahat "ümumi qida masasına" keçir və yeməklər arasında daha az fərq qoyurlar.

### 4-cü yalan - "Süni qidanın tərkibində ana südündə olduğundan artıq vitamin var"

Sözsüz ki, ana südü və süni qidanın tərkibində olan vitaminlərin miqdarına baxsanız, çox təəccüblənəcəksiniz. İnanmazsınız, lakin süni qidanin tərkibində vitaminlər qat-qat çoxdur (Childbirth Beynəlxalq Təlim Təşkilatı nəzərə çatdırır ki, məsələn, 100 ml ana südündə dəmir 0.04 mq olduğu halda süni qidada 1.4 mq-dır). Lakin yenə də ana südü üstünlüyünü itirmir. Çünki ana südündə olan az miqdarda dəmir təbii olduğundan daha böyük faydaya malikdir. Ana südünün həzm olunması çox rahatdır və həzm prosesinin getməsi üçün daha az vitaminə ehtiyac duyulur. Sintez olunmuş süni qidanın həzminə isə külli miqdarda faydalı maddə sərf olunur. Məhz bu səbəbdən süni qidaların tərkibindəki vitaminlərin miqdarı qat-qat artırılır .

### 5-ci yalan - "Müasir süni qidalar demək olar ki, ana südü ilə eynidir"

Tamamilə yanlış olan bu fikir haqqında kanadalı pediatr və əmizdirmə üzrə dünyamiqyaslı mütəxəssis Jack Newman "Some Breastfeeding Myths" adlı məqaləsində yazır: "1900 və ondan əvvəlki illərdə istehsal olunan süni qida müasir süni qida ilə eyni tərkiblidir. Onların tərkibində ana südündə olan anticisimlər, canlı hüceyrələr, hormonlar və fermentlər yoxdur. Ana südü doğuşdan 1-7 gün ərzində, anadan və körpədən asılı olaraq dəyişdiyi halda, süni qidanın tərkibi sabit olaraq qalır . Ana südü konkret körpənin, süni qida isə bütün körpələrin ehtiyacını ödəmək üçün nəzərdə tutulduğundan heç bir xüsusi xassəyə malik deyil". Belə bir qənaətə gəlmək olar ki, süni qidalarda dəyişən yalnız rəngarəng, gözəl və cəlbedici qablaşdırmalardır.

### 6-cı yalan - "Döşdə olan süd köhnəlir"

Beynəlxalq Süd Liqi "The womanly art of breastfeeding" adlı kitabında oxucuların nəzərinə çatdırır ki, ananın döşündə olan süd şüşə qabda olan südlə eyni deyil. Ana bədənindən ifraz olunan "sehrli" maye həmişə eyni hərarətdə və yüksək keyfiyyətdə olur.

### 7-ci yalan - "Yağlı və yağsız süd"

Dünya praktikasında ana südünə tətbiq olacaq belə bir terminologiya və ümumiyyətlə, anlayış mövcud deyil. Mövcud olan başqa bir anlayışlar var: ön və arxa süd. Ön süd tərkibində daha çox maye, arxa süd isə daha çox yağdan və zülaldan ibarət olan süddür və bütün anaların südünə aiddir. Əgər kiminsə yalnız ana südü ilə qidalanan körpəsi sizin körpənizdən daha canlı və kökdürsə, bunun səbəbini südünüzün qüsurlu olmasında axtarmayın. Sadəcə, həmin körpədə genetik ailə tarixi və şəxsi bədən konstitusiyası özünü göstərə bilər.

### 8-ci yalan - "Çox yemək! Çox içmək! Çox yatmaq!"

Dusdiyeker L.B "Is milk production impaired by dieting during lactation?" ( American Journal of Clinical Nutrition 1994) və Duvi K.Q. "Effects of maternal caloric restriction and exercise during lactation" (Journal of Nutrition 1998) məqalələrdə əmizdirən ananın qidası haqqında ətraflı məlumat veriblər. Bu mütəxəssislər ananın çoxlu su içməsi və qidasında çox miqdarda və kalorili yeməklərin südü daha keyfiyyətli etməsi fikirlərini təkzib edirlər.

### 9-cu yalan - "Yalançı südartıran ərzaqlar"

Azərbaycanda qatılaşdırılmış südü, çay və ağır xəmir xörəklərini analara tez-tez süd artıran ərzaqlar kimi məsləhət görürlər. Qeyd etmək lazımdır ki, vətənimizin hər bir bölgəsinin özünəməxsus ləziz xəmir xörəkləri analara demək olar ki, doğuşdan dərhal sonra verilir və əmizdirən analara təklif olunur. "Childbirth İnternational"ın verdiyi məlumata görə, Cənubi Amerikanın And dağlarında yaşayan bəzi tayfalarda əmizdirən analara hakaçu quşunun ətini və lələklərini yedizdirmək, Çində isə kurau balığının yumuşaq, ağ ətindən şorba hazırlamaq yerli ənənənin bir hissəsidir. Sözsüz ki, bütün bunların heç bir möhkəm elmi və praktiki əsasları yoxdur. Yalnız sağlam qida vərdişləri laktogenetikaya müsbət təsiri ilə özünü dəfələrlə təsdiqləyib.

### 10-cu yalan - "Südün miqdarı sağılmaqla bəllidir"

Anaların ən böyük dərdi "istehsal" etdikləri südün miqdarının körpələri üçün kifayət olubolmamasıdır. Adətən, bunun üçün analar südlərini əl və ya südsağan aparatlar ilə sağıb miqdarını ölçməyə çalışırlar. Südünüzün kifayət qədər olmasını sübuta yetirən başqa vasitələr var. İlk növbəd,ə körpənizi müşahidə edin. Yaxşı əmən körpə ananın bütün çalışqanlığı ilə sağa biləcəyi süddən dəfələrlə çox süd əldə edə bilər. Dr. Nyümana görə, sağmaq süd ehtiyatınızı deyil, yalnız sizin sağa biləcəyiniz südün miqdarını göstərə bilər.

Ana südü minilliklər boyu özünü doğruldub və həyatın müxtəlif sınaqlarından müvəffəqiyyətlə çıxıb. Zəngin tərkibi olan ana südü bəşəriyyətin yaradıldığı gündən etibarən keyfiyyətinə və eyni zamanda, asanlığına görə rəqib tanımır. Müharibə, yoxsulluq, təbii fəlakət və digər fövqəladə vəziyyətlərdə körpələrin sağ qalmasına səbəb olan və ətraf mühitdə baş verənlərdən asılı olmayaraq, körpələri ən keyfiyyətli qida ilə təchiz edən məhz ana südüdür.

*Lalə Mehralı*



## "Barselona" 27 yaşlı futbolçu ilə razılaşdı

İspaniyanın "Barselona" klubu İngiltərə "Mançester Siti"sindən Joau Kanselunu heyətinə qatmağa yaxındır. SİA xəbər verir ki, məşhur insayder Fabritsio Romanonun yaydığı məlumata görə, portuqaliyalı müdafiəçi "Barsa"ya keçmək istəyir. Tərəflər şəxsi razılıq əldə ediblər. Hazırda kataloniyalılar "Mançester Siti" ilə danışıqlar aparırlar. Klub Usman Dembelenin Fransa PSJ-sinə satışından əldə ediləcək vəsaitin bir hissəsini bu keçidə yönəltmək niyyətindədir.

2019-cu ildə "Yuventus"dan "Mançester Siti"yə transfer olunan Kanselu ötən mövsümü icarə əsasında Almaniyanın "Bavariya" klubunda keçirib. 27 yaşlı cinah oyunçusu keçən mövsüm 47 oyunda üç qol, 11 məhsuldar ötürmə ilə yadda qalıb.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000